

# İlham Əliyev Makronu təbrik etdi

*Prezident İlham Əliyev Fransa Respublikasının Prezidenti Emmanuel Makrona təbrik məktubu ünvanlayıb. "Unikal" xəbər verir ki, təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Fransa Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı*

Səh.2


# UNİKAL

№25 (2110) 15 iyul 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Hacıbala Abutalıbov biznesini genişləndirir

## Məşhur brend Bakıdakı şəbəkəsini genişləndirməyə qərar verdi, köhnə iddialar yenidən gündəmə gəldi

*Ötən ay məlumat yayıldı ki, Azərbaycanda fəaliyyət göstərən ən məşhur restoran brendlərindən biri, Türkiyənin məşhur "Özsüt" restoran markası ölkədə yeni restoranların açılmasına hazırlaşır. Şirkət yeni restoranların fəaliyyətə başlaması ilə bağlı yerli investorlara françayzinq şərtlərini də açıqlamışdı. "Özsüt" brendinin 80-dən çox yaşı var. Şirkətin tarixi İzmirdə Kemeraltında 16 kvadratmetrlik bir məkanda başlayıb. 1938-ci ildə burada aşpaz Səfər "Özsüt muhallebicisi" adlı dükan açıb. Orada qatıq, qaymaq və şirniyyat satılırdı. 1980-ci ildə isə idarəçiliyi üzərinə götürən İbrahim Urlulu "Özsüt"ün əsasını qoyub. "Özsüt"un ənənəvi şirniyyatları Osmanlı mətbəxindən gəlir. Hazırda Türkiyədə "Özsüt"ün 180-dən artıq mağaza və restoranı fəaliyyət göstərir. 2014-cü ildə "Özsüt"ün sahibi "STP Gıda"nın 70% səhmi "Infinity Invest Holding"ə satılıb.*

Səh.7

# Regionda yeni siyasi mərhələ başlayır, yoxsa...



Səh.9

## "Bu il ərzaq qıtlığı, qiymət artımları ən ciddi problemlərdən biri olacaq"



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a müsahibə verib. Deputat ipoteka kreditlərinin faizlərinin aşağı salınmasından, əmək pensiyalarına təklif edilən dəyişikliklərdən, ərzaq təhlükəsizliyindən və başqa məsələlərdən danışıb.*

Səh.4

## Mədəniyyət Nazirliyində yeni həbslər gözlənilir



*Ötən həftə məlumat yayıldı ki, hazırda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən mədəniyyət müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi, səmərəliliyinin artırılması və xidmət səviyyəsinin yüksəldilməsi məqsədilə kompleks islahatlar aparılmaqdadır.*

Səh.8

## "Qəbul imtahanlarının ikinci cəhdi daha yaxşı olacaq" - DİM sədri



*"Ali məktəblərə qəbul imtahanlarının ikinci cəhdinin birincidən daha yaxşı olacağı gözlənilir". "Unikal" xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, səbəb abituriyentlərin II cəhdə daha yaxşı hazırlaşmalarıdır:*

Səh.6

# “Sizi adınızla çağıracağam, “civi”lər və “manıs”lar!” - Səidə Sultan



***”Ey bayağı oxuyan ”civi”lər və ”manıs”lar, siz Azərbaycanı sevmirsiniz. Sizin kimiləri ancaq pul maraqlandırır. Necə ki, insanların haqqını yeyən, onların cibinə girib sərvətini yeyən, kasıblığa, ölümə sürükləyən zalımlardan heç bir fərqiniz yoxdur”.***

“Unikal” olay-a istinadən xəbər verir ki, bu sözləri müğənni Səidə Sultan sosial media hesabında yazıb. O, bayağı mahnılar oxuyan ifaçılar yenə də tənqid edib, onları Azərbaycanı sevməməkdə günahlandırıb:

”Siz ”civi”lər də bayağı oxuyub, sadəcə silahsız şəkildə insanların zövqünü zəhərləyib onlardan ən asan yolla pul qazanırsınız. Bu arsızlıqla da özünüzü böyük biri hesab edirsiniz. Azərbaycan musiqisinin düşmənləri sizsiniz. ”Civi”lər və ”manıs”lar, bundan sonra sizi adınızla çağıracağam, pul xətrinə Azərbaycan musiqisinə xələl gətirən ”civi”lər və ”manıs”lar”.

Qeyd edək ki, sənətçi ötən günlərdə də sözügedən ifaçılarla bağlı açıqlama vermiş, həmkar Şəbnəm Tovuzluyla qalmaqal yaşamışdı.

# Xatirədən intihar edən qazi ilə bağlı paylaşım

***Müğənni Xatirə İslam intihar edən qazi ilə bağlı paylaşım edib.***

Axşam.az xəbər verir ki, sənətçi Elvin Cəfərovun videosunu yayımlayaraq bunları əlavə edib:

”Can... Qardaş, Allah sənə rəhmət eləsin. Mənim təyyarə biletləri ilə bağlı dediyim sözü daha çox paylaşdılar, nəinki vətən uğrunda canından keçən səni. Biz beləyik, aramızda şou-biznesə meyilli insanlar daha çoxdur. Allah bu dünyaya kömək olsun, biz hara gedirik belə? Olan sənə, ailənə, balalarına oldu... Yenə də hər şey unudulacaq... Heyif bu oğullardan, çox heyif”.



Qeyd edək ki, bir neçə gün əvvəl Sabirabadda özünü yandıraraq intihara cəhd edən qazi Elvin Cəfərov ağır vəziyyətdə Respublika Yanıq Mərkəzinə yerləşdirilib. 35 yaşlı qazi dünyasını dəyişib.

# Röya: “Mənə nə desəniz keçərəm, amma ailəmə heç vaxt!”



***Xalq artisti Röya Ayxan atası Yaqub bəylə bağlı paylaşım edib.***

“Unikal” bizim.media-ya istinadən xəbər verir ki, sənətçi qardaşı İsmayılın toyunda atası ilə çəkdirdiyi fotolarını sosial şəbəkə hesabında yayımlayıb.

Röya paylaşımında atasına xoş sözlər ünvanlayıb.

”Atamı sevirəm, onun balalarını da sevirəm. Mənə nə desəniz keçərəm, amma ailəmə heç vaxt! Bir-birimizə hörmət etməyi öyrənək. O zaman dünya bizim olar”, - deyə müğənni bildirib.



# Brilliant Dadaşovanın oğlunun 3 min manat cəriməsi var

***Xalq artisti Brilliant Dadaşovanın oğlu Cahad Hacıyev sosial şəbəkədəki paylaşımı ilə diqqət çəkib.***

O, sosial şəbəkədə izləyicilərinin suallarını cavablandırıb. ”Ən çox nədən qorxursunuz” sualına isə Cahad belə cavab verib:

”Azadlıqdan məhrum edilməkdən. Buna görə də mənim komendant saatı və karantin qaydalarını pozduğuma görə 3 min manat cəriməm var. Azad olmadan yaşaya bilmərəm. Bu dünyada iki növ quş var: 1. Kimləri qəfəsdə doğulub və uçmağı absurd hesab edir. 2. Bəziləri isə azad doğulub və qəfəsi absurd hesab edir”.

# Vəfa Şərifova ikinci dəfə ana olacaq

***Müğənni Vəfa Şərifova ikinci dəfə ana olacaq.***

İfaçı bu haqda aparıcı-prodüser Tarix Əliyevin ”Səmimi” yutub layihəsində deyib. O bildirib ki, uzun müddətdir bunu gizlətməyə çalışır.



Qeyd edək ki, V.Şərifovanın bir qız övladı var. O, qızının atasının iş adamı Famil Xəlilov olduğunu bildirib.

# "Xanımım pulumun yerini bilməməlidir" - Əməkdar artist



***”Ehtiyatda pul saxlamıram. Onda belə gəlir. Çalışın ehtiyatda pul saxlamayın: 5, 10, 15 min... Sənət adamı günortaya qədər ac qalar. Allah sonra onun çörəyini yetirəcək. Çox pulu olanın çox da dərdi olur”.***

Bu sözləri Əməkdar artist Yusif Mustafayev ”Həmin Zaur” proqramında deyib. Müğənni daha sonra pulunun miqdarını xanımının bilmədiyini söyləyib: ”Balalarımdan, yoldaşımdan gizlinim olsa, Allah məni öldürsün. Amma yoldaşım pulumun yerini və miqdarını bilmir. İki oğlum bilir, nəyim var onlarındır. Kənan və Tərlana qurbandı hər şeyim. Xanımım yığımcıldır, amma qadının öz işi var. Büdcə kişiyə aiddir”.



## Arzu Rəhimov Şəkidə vətəndaşların problemlərini həll etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin 2022-ci ilin iyul ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-polkovnik Arzu Rəhimov iyulun 14-də Şəkidə Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən rayonlarından olan vətəndaşların qəbulunu həyata keçirib.***

"Unikal" xəbər verir ki, qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilərək, önünə gül dəstəsi qoyulub.

Xidmət rəisi, general-polkovnik Arzu Rəhimovun keçirdiyi qəbulda 25 vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, övladının xidmət yerinin müəyyənləşdirilməsi, veteran adı və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlər ilə bağlı olub.

Qəbul edilən vətəndaşların müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb, araşdırılmasına ehtiyac olan məsələlər qanunvericiliyə uyğun olaraq tədbirlər görülməsi üçün nəzarətə götürülüb. Bəzi vətəndaşlar tərəfindən qaldırılan və Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün daha rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

## Cəbrayılda yük maşını minaya düşdü, sürücü xəsarət aldı

***Cəbrayıl rayonu ərazisində "Azərsun"un maşını mina düşüb, sürücü xəsarət alıb.***



"Unikal" xəbər verir ki, bu barədə ANAMA-dan məlumat verilib. Bildirilib ki, 2022-ci il 14 iyul tarixində Cəbrayıl rayonunun Dağtumas kəndi ərazisində minalardan təmizlənməmiş ərazidə mina hadisəsi baş verib.

"Azərsun Holdinq" MMC şirkətinə məxsus yükdaşıma nəqliyyat vasitəsi TM 62 P tank əleyhinə minaya düşüb. Partlayış nəticəsində xəsarət alan sürücü - 1996-cı il təvəllüdlü İmişli rayon sakini Məmmədov Şamil Fərahim oğlu rayon xəstəxanasına çatdırılıb.

ANAMA bir daha vətəndaşlarımıza müraciət edərək təhlükəli və şübhəli ərazilərə daxil olmamağa, rastlaşdıqları naməlum əşyalara toxunmamağa çağırır.

# Mədəniyyət Nazirliyində yeni həbslər gözlənilir

## "Böyük təmizləmə": Əbülfəs Qarayevin kadrları qorxu içindədir

***Ötən həftə məlumat yayıldı ki, hazırda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən mədəniyyət müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi, səmərəliliyinin artırılması və xidmət səviyyəsinin yüksəldilməsi məqsədilə kompleks islahatlar aparılmaqdadır.***

Nazirlikdən bildirildiyinə görə, qeyd olunan islahatlar çərçivəsində mədəniyyət müəssisələrində yoxlama, monitorinq və xidməti araşdırmalar zamanı aşkar olunan nöqsanların aradan qaldırılması, əmək və icra intizamının pozulması hallarına yol vermiş şəxslər barəsində müvafiq tədbirlərin görülməsi istiqamətində işlər aparılıb. Əlavə olaraq idarə və müəssisələrin vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə bağlı aşkarlanmış cinayət əlamətləri olan məlumatlar aidiyyəti üzrə hüquq mühafizə orqanlarına göndərilib. Hazırda Mədəniyyət Nazirliyinin strukturunda və strukturuna daxil olmayan tabeliyindəki qurumlarda baş verə biləcək pozuntu hallarının qarşısının alınması, belə hallara yol vermiş şəxslər barəsində zəruri tədbirlərin görülməsi istiqamətində yoxlama, xidməti araşdırmalar və digər tədbirlər davam etdirilir.

O da məlum oldu ki, son bir il ərzində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən Ağstafa, İsmayıllı, Şəki, Bərdə, Masallı, Ağdaş, Sumqayıt, Gəncə və Lənkəran Regional Mədəniyyət İdarələrində və tabe müəssisələrdə aparılmış yoxlama və xidməti araşdırmaların nəticələrinə əsasən bəzi tədbirlər görülüb. Bu tədbirlərdən ən diqqətçəkəni hüquq mühafizə orqanlarına göndərilmiş müraciətlərin sayı idi - 11.

"Unikal"a daxil olan məlumata görə, həmin müraciətlərin araşdırılması nəticəsində yeni cinayət işlərinin başlanması və bəzi həbslərin həyata keçirilməsi istisna deyil. "Mədəniyyət Nazirliyinin yeni rəhbərliyinin apardığı yoxlamalar nəticəsində 11 fakt üzrə hüquq-mühafizə orqanlarına müraciət edilməsinə ehtiyac duyulubsa, bu, təsadüfi sayıla bilməz. Görünür, həmin yoxlamalar zamanı kifayət qədər ciddi, genişmiqyaslı qanunsuzluqlar, nöqsanlar aşkarlanıb və bunlara hüquqi qiymət verilməsi zərurəti yaranıb. Belədə sözügedən müraciətlərlə bağlı biz qarşıdakı dövrdə cinayət işlərinin açıldığı, həbslərin aparıldığı barədə xəbərlər oxuya bilərik" deyə bəzi mənbələr mövzunu şərh edərkən vurğulayıblar.

Qeyd edək ki, fəaliyyəti ilə bağlı cinayət əlamətləri olan məlumatlardan 6-sı təhsil müəssisəsi, 3-ü Regional Mədəniyyət İdarəsi, 1-i Mədəniyyət Mərkəzi, 1-i isə konsert müəssisəsi ilə bağlıdır. 2 Regional Mədəniyyət İdarəsi rəisinin həm də işdən azad edildiyini nəzərə alsaq, xüsusilə onları qarşıda "həyəcanlı günlər"in gözlədiyini əminliklə qeyd etmək mümkündür.

O da qeyd olunur ki, aparılan yoxlama, monitorinq və xidməti araşdırmaların yekunu olaraq dövlət qulluğuna və əmək fəaliyyətinə xitam verilmiş işçilərin sayı 8, işdən azad edilmiş tabe müəssisələrin işçilərinin sayı 17, sonuncu xəbərdarlıqla "Şiddətli töhmət" intizam tənbehi verilmiş işçilərin sayı 2, "töhmət" intizam tənbehi verilmiş işçilərin sayı 18, "xəbərdarlıq" elan edilmiş işçilərin sayı 10 olub.

Dövlət qulluğuna və əmək fəaliyyətinə xitam verilmiş Regional Mədəniyyət İdarəsi işçilərinin sayı isə belədir: 3 baş məsləhətçi; 1 baş mühasib; 1 məsləhətçi% 1 mühasib.

İşdən azad edilmiş tabe müəssisələrin işçilərindən isə 2-si uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin direktoru, 2-si Mədəniyyət Mərkəzinin direktoru, 1-i dövlət teatrının direktoru və baş rejissoru, 1-i Tarix-Diyarşünaslıq muzeyinin direktoru və həmin muzeyin filialının müdiri, 1-i konsert müəssisəsinin baş mühasibi, 1-i Rəsm Qalereyasının direktor müavini, 7-si təhsil müəssisəsinin 7 əməkdaşıdır. Bundan başqa, 1 Tarix-Diyarşünaslıq Muzeyinin direktoruna, 1 dövlət teatrının baş mühasibinə sonuncu xəbərdarlıqla "Şiddətli töhmət" intizam tənbehi verilib, 1 Regional Mədəniyyət İdarəsinin rəisinə və baş məsləhətçisinə, 4 uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin müdirlərinə, 1 Dövlət Dram Teatrının direktoruna, 4 Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoruna, 1 Rəsm Qalereyasının direktoruna, 1 Konsert müəssisəsinin direktoruna, 1 Heydər Əliyev Mərkəzinin direktoruna və təsərrüfat müdirinə, 2 Mədəniyyət Mərkəzinin direktoruna, təhsil müəssisəsinin 1 əməkdaşına "töhmət" intizam tənbehi elan edilib.

Bundan başqa, 1 Regional Mədəniyyət İdarəsinin mühasibinə, 1 Mədəniyyət Sarayının direktoruna, 1 Heydər Əliyev Mərkəzinin bədii rəhbər-rejissoruna və həmin mərkəzin müşayiətçisinə, 4 Uşaq musiqi, incəsənət və rəssamlıq məktəbinin direktoruna, 1 Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoruna, təhsil müəssisəsinin 1 əməkdaşına "xəbərdarlıq" elan olunub.



Yuxarıdakı rəqəmlərdən aydın olan odur ki, Mədəniyyət Nazirliyində "böyük təmizləmə"yə start verilib; bu "təmizləmə" kimlər üçünsə işini itirməklə müşayiət olunur, kimlər üçün isə növbəti ən kiçik yanlışlıqda işsiz qalmaq perspektivi yaradır. Eyni zamanda bu proses daha sərt cəzalandırmalara, kimlərinsə həbsxanaya yolunu aça bilər.

Üstəlik, hazırda Mədəniyyət Nazirliyinin strukturunda və strukturuna daxil olmayan tabeliyindəki qurumlarda baş verə biləcək pozuntu hallarının qarşısının alınması, belə hallara yol vermiş şəxslər barəsində zəruri tədbirlərin görülməsi istiqamətində yoxlama, xidməti araşdırmalar və digər tədbirlərin davam etdirildiyini nəzərə alsaq, bizi qarşıdakı həftələrdə, aylarda maraqlı sürprizlərin gözləyə biləcəyini proqnozlaşdırmaq elə də çətin deyil. Söhbət xüsusilə də sabiq nazir Əbülfəs Qarayevin hələ də vəzifə başında olan və "köhnə hamam, köhnə tas" prinsipi ilə işləməkdən əl çəkmək istəməyən kadrlarından, daha doğrusu, belə yarıtmaz kadrları gözləyəcək cəzalardan gedir...

***Toğrul Əliyev***

# Regionda yeni siyasi mərhələ başlayır, yoxsa...

## "3+3" formatı çərçivəsindəki görüşün əsas mövzuları Suriya məsələsi, tərəflərin iqtisadi əlaqələri və "Zəngəzur dəhlizi" olacaq

***Xəbər verildiyi kimi, Türkiyə, Rusiya və İran prezidentlərinin Tehranda görüşü keçiriləcək. Üç ölkə liderinin görüşü zamanı Suriya üzrə "Astana" formatının davamı və siyasi-iqtisadi əməkdaşlıq məsələləri müzakirə ediləcək. Rusiya- Ukrayna müharibəsi fonunda bu görüşün keçirilməsi, Tehran və Moskva üçün xüsusi əhəmiyyət kəsb edir.***

Bu barədə fikirlərini "Unikal"la bölüşən politoloq Məhəmməd Əsədullazadə deyib ki, Tehran ona qarşı nüvə məsələsində Moskva və Ankaranın tam dəstəyini almağa çalışır: "İkinci, Türkiyə Şimali Suriyada terrorçu PKK/YPG qarşı növbəti anti-terror əməliyyatını keçirmək üçün hər iki ölkənin neytral qalması üçün danışıqlar aparacaq. İranın Ankaranın bu təklifinə razılıq verməsi gözlənilmir. Moskva isə, Türkiyə ilə münasibətləri pozmamaq və əlaqələri normal müstəvidə aparmaq üçün neytral qalacaq. Üçüncü, İran Türkiyəyə qarşı təzyiq etmək mexanizminə malik deyil. Buna baxmayaraq Tehranla bu məsələdə problemdə maraqlı deyil. Bundan əlavə hər üç ölkə "3+3" formatında əməkdaşlıq və bu istiqamətdə proseslərin başlanılmasına razılaşacaqlar. Rusiya üçün belə bir formatda görüş vacib sayılır. Çünki, sanksiyalarla üzləşən Rusiyaya siyasi-iqtisadi tərəfdaşlar lazımdır".

Müsahibimiz onu da qeyd edib ki, Türkiyə Şimali Suriyada anti-terror əməliyyatı aparmaq üçün hər iki ölkənin neytral qalması üçün razılıq əldə etməyə çalışır: "Həmçinin, "3+3" formatı çərçivəsində Ankara hər iki ölkənin Cənubi Qafqazda Azərbaycan və Ermənistan arasında yekun sülhə nail olmaq üçün danışıqlar apararaq real razılıq əldə edilməsinə çalışır. Yeni dünya nizamı qurulur və regionda İran Türkiyənin artan siyasi-iqtisadi mövqeyindən narahatdır. Xüsusilə, Cənubi Qafqazda Ankaranın fəaliyyətini geostrateji təhdid kimi görür. Bu görüşdə Tehran Ankaranın Cənubi Qafqaz siyasətini qəbul edəcək. Rusiya Tehran görüşünü Qərbə qarşı istifadə edəcək. Qeyd edim ki, belə bir görüşün keçirilməsi Rusiyadan təşkil olunub. Rusiya, İran və Türkiyə vasitəsilə yeni bir siyasi mərhələnin başlanmasına çalışır".

Maraqlı və mühüm məqamlardan biri də odur ki, Ermənistan Azərbaycan əlaqələrində Türkiyə faktoru önə çıxır. Bu fikirləri irəli sürən M.Əsədullazadə hesab edir ki, Ermənistanın Azərbaycanla danışıqlar prosesindən yayınması növbəti hərbi eskolasiyaya gətirməyəcək: "Baş nazir Nikol Paşinyan hazırda Türkiyə ilə yaxınlaşmaq siyasəti aparır. Türkiyə ilə münasibətlər normallaşarsa, Yerevan Azərbaycanla ikitərəfli masa ətrafında əyləşəcək. Ankara bu istiqamətdə Ermənistan hakimiyyəti ilə danışıqlar aparacaq. Məhz N. Paşinyan hazırkı mərhələdə Brüssel danışıqlarından çəkinir və Kremlin ordu daxilindəki nüfuzundan çəkinərək sülh anlaşmasına getmir. Paşinyan ölkə daxilində Rusiyaya bağlı müxalifəti zəiflətmək və ordu daxilində təmizləmələr siyasəti həyata keçirir. Ordu daxilində Rusiyaya bağlı qrup qalmaqdadır və onlar Qarabağ klanına dəstək verə bilərlər. Paşinyanın bütün cəhdlərinə baxmayaraq daxildən və xaricdən təzyiqlər onu Brüssel formatında əldə olunan razılaşmaları yerinə yetirməməsinə sövq etdi. Ona görə də N. Paşinyan daxildə ordunun müəyyən qrupunun siyasətə təsirini zəiflədəcək və müxalifətin imkanlarını parçalayacaq. Artıq parlamentdə bunu etməyə başlayır".

Ekspert onu da vurğulayıb ki, rəsmi Bakı Paşinyanın son siyasətini yaxından izləməlidir: "Yerevan Ankara ilə yaxınlaşaraq, daxildə müxalifəti zəiflədib Azərbaycanla sülhə nail olmağa çalışacaq. Ermənistanda daxili siyasi vəziyyət mürəkkəb və həssasdır. Müxalifətin etirazları fiaskoya uğradığına görə, "B" planı işə salınıb, Türkiyə ilə sülh anlaşmasının qarşısını almaq üçün hərbi çevrilişə də cəhd oluna bilər. Ermənistanla siyasi-hərbi müstəvidə əsas məsələ Prezident İlham Əliyevin strateji planı sülhə nail olmaq və Ermənistanı buna məcbur etməkdir. Hətta Ermənistan və Azərbaycan liderlərinin birbaşa telefon danışıqlarına da ehtiyac var. İki tərəfli telefon diplomatiyası bir çox məsələləri yoluna qoya bilər. İkitərəfli danışıqlarda Ermənistan Qarabağ iddiasından geri çəkiləcək və bundan sonra qarşılıqlı ərazi bütövlüyünün tanınması mümkündür. Növbəti aylardan Ermənistan Azərbaycan münasibətlərinə aydınlıq gələcək".

Politoloq İlyas Hüseynov isə Tehranda gözlənilən üçtərəfli görüşlə bağlı fikirlərini bölüşərkən bildirib ki, Regional sülhün qorunması və əməkdaşlığın dərinləşməsi baxımından Ərdoğan, Putin və Rəisinin İranda keçirəcəyi görüş mühüm əhəmiyyət kəsb edir. Ekspert qeyd edib ki, Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan həm Ukraynada gedən müharibədə sülh quruculuğu, həm də taxıl nəqli ilə bağlı dəfələrlə təmas qurublar: "Digər tərəfdən, Cənubi Qafqazın əhatə etdiyi 3 nəhəng dövlətin liderinin İrandakı görüşü bizi də yaxından maraqlandırır. İkinci Qarabağ müharibəsindən sonra regionda yeni geosiyasi konfiqurasiya yaranıb və Türkiyənin regionda iştirakçılığı daha da genişlənib. 3+3 platforması çərçivəsində irəli sürülən ideyaları hər üç dövlət dəstəkləyir. Eyni zamanda nəzərə almaq lazımdır ki, Yaxın Şərqdə sülhün əldə olunmasında da üçtərəfli görüşün mühüm nəticələri olub. Hazırda enerji daşıyıcılarına olan tələbatın, qlobal inflyasiyanın və müharibənin yaratdığı fəsadların fonunda iqtisadi və nəqliyyat əlaqələrinin önəmi getdikcə artır".

İ.Hüseynovun fikrincə, bu baxımdan, Zəngəzur dəhlizinin reallaşması ehtimalı güclənir: "Eyni zamanda İran tərəfinin diplomatik təşəbbüsləri və atdığı addımlar da diqqət çəkir. Rusiyaya qarşı iqtisadi sanksiyaların güclənməsi fonunda Qərbin İrana qarşı mövqeyinin dəyişməsi ehtimalı var. Bununla yanaşı, Avropa İttifaqının Xarici İşlər Nazirliyinin baş katibi Stefano Sannino bildirib ki, Avropa İttifaqı İranın Rusiyaya potensial pilotsuz təyyarələrin ötürülməsindən qorxur və bunun "təhlükəli inkişaf" olacağına inanır. Buna görə də tərəflər arasında hərbi seqmentin də müzakirə mövzusu olacağını ehtimal etmək olar".

Politoloq ümid edir ki, Tehran görüşü çox məhsuldar olacaq, sülhün və təhlükəsizliyin dayanıqlığının gücləndirilməsinə mühüm töhfələr verəcək.

Müsahibimiz başqa bir məqama da toxunub. O bildirib ki, Türkiyə Ermənistanla sərhədə bitişik əraziləri minalardan təmizləməyə başlayıb. Minalardan təmizləmə işləri Qars vilayətinin Akyaka bölgəsində həyata keçirilir. Prosesdə İsrail şirkəti də iştirak edir: "Mənbələr bunu iki ölkə arasında sərhəd keçid məntəqələrinin açılmasına hazırlıq prosesi kimi dəyərləndirirlər. Bu yaxınlarda Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə məşğul olan iki ölkənin xüsusi nümayəndəsinin görüşündə Türkiyə və Ermənistan sərhədlərinin üçüncü ölkələrin vətəndaşları üçün açılması ilə bağlı razılıq əldə olunub".

Bununla bağlı Modern.az-a danışan sabiq xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov hesab edir ki, görüşün əsas mövzuları Suriya məsələsi, tərəflərin iqtisadi əlaqələri və "Zəngəzur dəhlizi" olacaq: "Rusiya qərb istiqamətindəki iqtisadi əlaqələrin böyük hissəsini bağlamalı olub, sanksiyalara məruz qalıb. Onun üçün hazırda cənub və şərq istiqamətləri mühüm əhəmiyyət kəsb edir. Rusiyanın cənubda yerləşən partnyorları indi vacib tərəfdaş kimi görünürlər. Ermənistan baş naziri Nikol Paşinyan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana zəng etdi. Son 10 ildə ilk dəfədir ki, Ermənistan Türkiyəni Qurban bayramı münasibətilə təbrik edib. Zəngin baş tutması da Rusiyanın təşəbbüsü ilə reallaşan məsələdir. Çünki ayın 19-da "Astana üçlüyü"nün Tehranda görüşü keçiriləcək. Türkiyə, Rusiya və İranın ildə bir dəfə ənənəvi görüşləri keçirilməli idi. Pandemiya və Rusiya ilə İran arasındakı mövcud problemlər, Suriya məsələsi səbəbindən görüş baş tutmurdu. Məhz indi çoxdan gözlənilən proses başlayır. ABŞ prezidenti Co Baydenin Yaxın Şərqə səfəri də məhz bu günlərə təsadüf edir. Görürük ki, region istiqamətində böyük oyunçular aktivləşib. Tehranda Suriya mövzusu, neft qiymətləri və zənnimcə, Rusiya, Türkiyə və İran arasında ticarətin fəallaşması müzakirə olunacaq. Mövzuların arasında kommunikasiya məsələləri də əsas yer tutur. "Zəngəzur dəhlizi"nin işlək vəziyyətə gətirilməsi də gündəmdədir".



Tofiq Zülfüqarov Rusiya-İran münasibətlərinin nisbətən normallaşacağını, xüsusilə Türkiyənin regionda aparıcı oyunçulardan biri olaraq qalacağını düşünür: "Rusiya-Türkiyə iqtisadi əlaqələri fəallaşarsa, dəmir yolu vasitəsilə bağlantılar yenidən gündəmə gələcək. "Zəngəzur dəhlizi" və Naxçıvan ərazisindən keçəndən sonra Ermənistanın üzərindən də dəmir yolu bağlantısı var. Ona görə, iddialar var ki, Ermənistan-Türkiyə sərhədində guya minatəmizləmə işləri həyata keçirilir. Digər tərəfdən Rusiya-İran arasında əlaqələrin normallaşmasına, ticarət əlaqələrinin artırılmasına xidmət edən dəmir yolları, Fars körfəzinə gedən bağlantılar Culfa üzərindən həyata keçirilməlidir. Yenə də "Zəngəzur dəhlizi" vacib məqamlardan birinə çevrilir. Rusiyanın cənuba marağının artması təbiidir. Biz isə bu proseslərdə söz sahiblərindən biri olacağıq".

*Z.Məmmədli*

# Prezident 2021-ci il dövlət büdcəsinin icrasını təsdiqlədi



***Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanunu təsdiqləyib.***

"Unikal"ın xəbərinə görə, 2021-ci il dövlət büdcəsinin icrası gəlirlər 26 396 285,0 min manat, xərclər 27 422 420,2 min manat məbləğində olmaqla təsdiq edilib.

# "ASAN Xidmət" mərkəzləri ilə bağlı fərmana dəyişiklik edilib

***Prezident İlhan Əliyev "Bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 17 yanvar 2019-cu il tarixli fərmanında dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, dəyişikliyə əsasən, "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda nəzərdə tutulmuş xidmətlərin kiçik və orta biznes evlərində həyata keçirilməsi xidməti yalnız "ASAN Xidmət" mərkəzlərinə aid edilməyəcək.

Bu istisna həm də "DOST" mərkəzlərində əmək pensiyalarının təyin edilməsi xidmətinə aiddir.

# Türk sürücü Xocavənddə minaya düşdü

***İyulun 14-ü saat 14 radələrində Xocavənd rayonunun işğaldan azad edilmiş Tağaverd kəndi ərazisində Türkiyə Respublikasının vətəndaşı 1987-ci il təvəllüdlü Yalpiri Yıldırayın minaya düşməsi ilə bağlı rayon prokurorluğuna məlumat daxil olub.***



Bu barədə Xocavənd rayon prokurorluğundan "Unikal"a verilən məlumatda bildirilib.

İlkin araşdırmalarla həmin ərazidə təmir tikinti işləri aparılan zaman tikinti şirkətində ekskavator sürücüsü kimi çalışan Yalpiri Yıldırayın minaya düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alması müəyyən edilmişdir.

Hazırda faktla bağlı Xocavənd rayon prokurorluğunda araşdırma aparılır.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700



# Ermənistan ordusuna yeni baş qərargah rəisi təyin edildi

***Ermənistan Silahlı Qüvvələrinə yeni baş qərargah rəisi təyin olunub.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV-ləri məlumat yayıb. Məlumata görə, Ermənistan Silahlı Qüvvələrinə yeni baş qərargah rəisi vəzifəsini Edvard Asryan icra edəcək.

# İlham Əliyev Makronu təbrik etdi

***Prezident İlham Əliyev Fransa Respublikasının Prezidenti Emmanuel Makrona təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, təbrikdə deyilir:

"Hörmətli cənab Prezident,Fransa Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.



Bu il Azərbaycan-Fransa dövlətlərarası əlaqələrinin tarixində əlamətdar ildönümüdür. Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd etdiyimiz cari ildə biz ötən dövr ərzində əldə etdiyimiz nailiyyətlərə nəzər salır, iqtisadiyyat, energetika, mədəniyyət, təhsil və digər sahələrdə formalaşmış səmərəli əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi imkanlarını araşdırırıq. Hesab edirəm ki, müxtəlif istiqamətlər üzrə qarşılıqlı faydalı əməkdaşlığımızın inkişaf etdirilməsi üçün perspektivlər vardır.

Cənubi Qafqazda bərqərar olmuş yeni geosiyasi reallıq davamlı sülh və regional iqtisadi əməkdaşlıq üçün əlverişli zəmin yaratmışdır. Torpaqlarının 30 illik işğalına son qoyan Azərbaycan müharibə səhifəsini çevirmək, Ermənistanla münasibətləri normallaşdırmaq və sülh müqaviləsi imzalamaq istəyindədir. Beynəlxalq hüquqa söykənərək tərəfimizdən təqdim olunan beş prinsip əsasında Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması prosesinə Fransanın dəyərli töhfə verə biləcəyinə inanırıq.

İşğaldan azad edilmiş ərazilərdə Ermənistan tərəfindən basdırılmış minalar burada apardığımız bərpa və yenidənqurma işlərinə, bölgənin sosial-iqtisadi reinteqrasiyasına ən böyük əngəl olaraq qalmaqdadır. 2020-ci il noyabrın 10-dan indiyədək 220-dən çox şəxs mina hadisələri nəticəsində həlak olmuş və ya ağır xəsarət almışdır. Biz ərazilərimizin minalardan təmizlənməsi prosesinə Fransanın verdiyi töhfəni təqdir edir, Ermənistan-Azərbaycan münaqişəsi zamanı itkin düşmüş 4000-ə yaxın soydaşımızın taleyinin aydınlaşdırılması məsələsində də ölkənizin lazımi dəstək göstərəcəyinə ümidvarıq. Dərin hörmət və ehtiramlarımı izhar edirəm".

# Müdafiə Nazirliyi hərbçilərin döyüş fəaliyyəti ilə bağlı məlumat yaydı

***Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrin xidməti-döyüş fəaliyyəti yüksək səviyyədə təşkil edilir.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, bölmələrin hərtərəfli təminatı və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı tapşırıqlar planlı şəkildə icra olunur.

Çətin relyefli və sərt iqlim şəraitli ərazilərdə gecə və gündüz fasiləsiz xidmət aparan şəxsi heyətin döyüş qabiliyyətinin daha da artırılması, döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması üçün müasir tipli hərbi infrastruktur obyektlərin inşası uğurla davam etdirilir, eləcə də digər zəruri tədbirlər görülür.

Döyüş növbətçiliyi aparan şəxsi heyətin rahat xidmət aparmasını təmin etmək məqsədilə ehtiyat qida və əmlakın saxlanması üçün anbarlar, yataqxanalar, tibb məntəqələri, lazımi mətbəx avadanlıqları ilə tam təchiz olunan yeməkxanalar, asudə və xidməti otaqlar və digər obyektlər mövcuddur. Hərbi şəhərciklər mərkəzləşdirilmiş istilik sistemi, işıq, su və dayanıqlı rabitə, eləcə də fasiləsiz elektrik enerjisinin təminatı üçün generatorlarla təchiz olunub.



Hərbi qulluqçularımızın mövsümə uyğun geyimlə, təzə və yüksək kalorili isti qida ilə fasiləsiz təmin olunması, eləcə də sosial-məişət şəraiti və qoşun xidmətinin yüksək səviyyədə təşkil edilməsi maddi-texniki təminat xidməti tərəfindən daima nəzarətdə saxlanılır.

Günün nizam qaydalarına əsasən döyüş növbətçiliyi və qoşun xidməti təşkil edilir, döyüş hazırlığının yüksək səviyyədə saxlanması üçün bölmələrin şəxsi heyəti ilə gündəlik döyüş hazırlığı məşğələləri, ictimai-siyasi və hüquq hazırlığı üzrə dərslər keçirilir.

Azərbaycan Ordusunun şəxsi heyəti torpaqlarımızın müdafiəsi naminə Ali Baş Komandanın hər bir əmrinə daim hazırdır.

# Yoluxanların sayı kəskin artdı - ÖLƏNLƏR VAR

***Azərbaycanda son sutkada koronavirus infeksiyasına 174 yeni yoluxma faktı qeydə alınıb, 62 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***




"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.



# "Rusiya ilə ABŞ arasında münasibətlər pisləşib" - Peskov

***Rusiya Federasiyası ilə ABŞ arasında münasibətlərin pisləşib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərlə açıqlamasında deyib.

"Münasibətlər pisləşib - bu, faktdır", - deyə o, açıqlamasında vurğulayıb.

# Pusqudakı monopolistlərin yeni bahalaşma fəndi...

## İşbazlar benzinin qiymətindəki son artımı növbəti fürsətə çevirməyə hazırlaşırlar

***Yola salmaq üzrə olduğumuz həftə Azərbaycanda "Aİ-95" premium markalı benzinin qiyməti 40 qəpik bahalaşaraq 2 manata yüksəlib. "Aİ-98" super markalı benzinin qiyməti isə 2,30 manata qalxıb. Rəsmi qurumlar son bahalaşmanı dünya bazarlarında müşahidə olunan qiymət artımları ilə əlaqələndirir. Məhsulun idxal dəyərinin artmasının onun ölkəmizdəki satış qiymətlərinə də təsirsiz ötüşmədiyi qeyd olunur.***

Rəsmi məlumatlara görə, hazırda ölkədə istehlak olunan benzinin sadəcə 9%-i "Aİ-95" premium və "Aİ-98" super markalı benzinin payına düşür.

Bununla belə işbazların yenidən dövriyyəyə girə biləcəyinə dair ehtimallar var. Məsələ burasındadır ki, yerli bazarın inhisarçı mövqeyə malik oyunçuları benzinin qiymət artımını daim fürsətə çevirir və ölkədə qida, ərzaq məhsullarının, digər zəruri tələbat mallarının bahalaşmasında bəhanə kimi istifadə edirlər.



Gəlin yada salaq: ötən il sentyabr ayının 15-dən etibarən "A-98 SUPER" və "A-95 PREMİUM" markalı yanacaq növlərinin qiymətində artım baş verdi. "Aİ-98" 1,90 manata, "Aİ-95" isə 1,60 manata satılmağa başlandı. Bunun üstündən çox keçmədən isə marketlərdə ərzaq məhsullarının bahalaşması intensivləşdi. Elə bazarlarda da ətdən tutmuş meyvə-tərəvəzədək bütün məhsullarda onsuz da yüksək olan qiymətlər daha da artdı. Səbəbini soruşanda isə cavab eyni idi: benzin də bahalaşıb!

Eyni situasiyanı biz kommunal xidmətlərin bahalaşması zamanı da müşayiət edirik. Suyun, qazın, elektrik enerjisinin qiyməti qalxdıqca ərzağın da qiyməti "ceyran belinə minir".

Əlbəttə, burada təəccüblü heç nə yoxdur, lakin ilk baxışda! İstehsalçıların xərcləri yüksəlirsə onların istehsal etdikləri məhsulun qiymətində yüksəlmə olması təbii görünür, lakin yenə də ilk baxışda! Çünki bu bahalaşma əndazəni aşmamalıdır, necə deyərlər, "ağını çıxarmaq" bahasına başa gəlməməlidir.

Bir az da konkretləşdirək: bu həftə "Aİ-98 SUPER" və "Aİ-95 PREMİUM" markalı benzinlərin bahalaşdığı gün məlum oldu ki, Azərbaycanda quzu əti də bahalaşıb.Daha əvvəl 13-14 manata satılan quzu ətinin qiyməti olub 15-16 manat!

Düzdür, bu qiymət artımı tamam başqa faktorlarla izah edilirdi, bildirilirdi ki, ölkə üzrə quzu ətinin topdansatış qiyməti artıb, onun da iki səbəbi var. Birincisi, mal-qaranın əsas qidasını təşkil edən otun, digər səbəb isə xaricdən idxal olunan gübrələrin bahalaşması. Lakin burada iki məqam önəmlidir: birincisi, biz yay aylarında yaşayırıq, indidən otun qiyməti bəhanə edilib qiymətlər bu qədər artılırsa, payız və qış aylarında ətin daha yüksək qiymətə satılması qaçılmazdır.

İkincisi, hər şeyi bahalaşma üçün fürsət kimi görən işbazların yuxarıdakı faktorlara benzinin bahalaşmasını da əlavə etməyəcəklərinin, qarşıdakı dövrdə əti daha da bahalaşdırmayacağının təminatı varmı? Ötən illərin təcrübəsi göstərir ki, belə bir təminatdan danışmaq yersizdir. Hər hansı kommunal xidmətdə, yaxud yanacağın dəyərində artım kifayətdir ki, bunun müqabilində ərzaqların, qida məhsullarının qiyməti "kəlləçarxa" çıxsın.

(Burada kiçik bir haşiyə çıxaq. Bir qədər əvvəllərdə mövsümi meyvə olan gilasın fantastik qiymətə satılmasını hətta Rusiya ilə Ukrayna arasındakı müharibə ilə "əsaslandırmağa" çalışanlar tapılırdı. Belələrindən Xaçmazda yetişən gilası 8-10 manata satmaqla Ukraynadakı savaşın nə əlaqəsi olduğunu soruşsan, yəqin ki, gözlərini döyəcəkdilər. Ancaq çifayda... İşbazlar üçün hər hansı məntiqi sual qarşısında gözlərini döyməyin bir mənası yoxdur. Əsas odur ki, necə deyərlər, "qaz vurub qazan doldursunlar", sonrasının onlara heç bir isti-soyuğu yoxdur...)

Elə ona görə də, obrazlı desək, "marığa" yatıb yeni bahalaşma dalğasına start vermək üçün fürsət qovalayan işbazlar, inhisarçılar üzərində aidiyyatı dövlət qurumlarının nəzarəti gücləndirməsinə əşhədü-ehtiyac var. İmkan verilməməlidir ki, haqsız rəqabət mühitinin onlara tanıdığı imkanlardan sui-istifadə edənlər növbəti dəfə vətəndaşların cibini soymaq bahasına daha çox qazanc əldə eləmək fikrinə düşməsinlər.

Bir məqamı vurğulamaqda da xüsusi fayda var. Təcrübə göstərir ki, bazarın inhisarçı, monopolist mövqeyə sahib oyunçuları, eləcə də müxtəlif işbazlar müvafiq dövlət orqanlarının süni bahalaşmaya qarşı xəbərdarlıqlarına və antiinflyasiya tədbirlərinə bir çox hallarda dırnaqarası münasibət sərgiləyir, özlərini "toxunulmaz" hesab etdikləri üçün ciddi cəza tədbirlərindən yayına biləcəklərini düşünürlər. Bu səbəbdən də benzinin qiymətindəki son artımın ardından yeni bahalaşmaya başlamaq üçün "marığa yatanlara" qarşı hüquq mühafizə orqanlarının daha sərt davranılması qaçılmazdır. Əks halda biz market və dükanların vitrinlərindəki məhsulların üzərinə vurulan, üstəlik, onsuz da kifayət qədər yüksək olan qiymətlərin daha da "əl yandırdığını" müşahidə eləməyə başlayacağıq.

Özü də heç payız gəlmədən!

***Murad İbrahimli***

# Polad Həşimovla İlqar Mirzəyevin şəhadətindən 2 il ötür



***Bu gün general-mayor Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin şəhid olmasının ildönümüdür.***

"Unikal" xəbər verir ki, Azərbaycan Silahlı Qüvvələrinin bu iki hərbçisi 2020-ci il iyulun 12-17-də baş verən Tovuz döyüşləri zamanı müdafiənin ön xəttində qəhrəmancasına şəhid olublar.

İyulun 14-də səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutub. Düşmənin təxribat xarakterli hücumu nəticəsində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovniki İlqar Mirzəyev və həmçinin daha beş hərbi qulluqçu şəhid olub. Ermənistanın hərbi birləşmələrinin hücumları nəticəsində rayonun Ağdam kənd sakini da həlak olub.

Qeyd edək ki, Polad Həşimov 1975-ci ildə Qəbələ rayonunun Vəndam qəsəbəsində anadan olub. 1976-cı ildə Həşimovlar ailəsi Qəbələ rayonundan Sumqayıt şəhərinə köçüb və burada yaşamağa başlayıblar. P.Həşimov Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun komandir müavini - Qərargah rəisi olub.

Bakıda, Sumqayıtda və Qəbələdə küçələrdən birinə Polad Həşimovun adı verilib. Bundan başqa, Türkiyənin Osmanqazi rayonunda Polad Həşimovun adını daşıyan park salınıb.

İlqar Mirzəyev isə 1973-cü ildə Gürcüstanın Qardabani rayonunda anadan olub. O, Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun artilleriya rəisi vəzifəsində çalışıb.

Prezident İlham Əliyevin 2020-ci ilin dekabrın 9-da imzaladığı sərəncamla Polad Həşimova və İlqar Mirzəyevə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Polad Həşimov və İlqar Mirzəyev 2020-ci il iyulun 15-də ikinci Fəxri xiyabanda dəfn olunublar.

# I və IV qrupların imtahan vaxtı dəyişdi



***Dövlət İmtahan Mərkəzi tərəfindən 20 və 21 iyul tarixlərində keçirilməsi nəzərdə I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanları qeydiyyatdan keçmiş abituriyentlərin sayı nəzərə alınaraq yalnız bir gündə - iyulun 21-də təşkil olunacaq.***

DİM-dən "Unikal"a verilən xəbərə görə, imtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Sumqayıt, Şəki, Bərdə, Göyçay, Şirvan, Salyan, Lənkəran və Xaçmazda keçiriləcək.

Abituriyentlər "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilərlər. "İmtahana buraxılış vərəqəsi"ndə imtahanın keçiriləcəyi tarix, şəhər (rayon), bina, zal, başlanma vaxtı və abituriyentin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunub. Məlumat üçün qeyd edək ki, imtahanlar saat 10:00-da başlanacaq.

# Paşinyan Papazyanın Ermənistana girişinə qadağa qoydu

***Fransadakı erməni şirkətlərinin koordinasiya şurasının sədri, ARF Bürosunun üzvü Murad Papazyanın Ermənistana girişinə qadağa qoyulub.***



"Unikal" xəbər verir ki, bu barədə Papazyan özü "Facebook" səhifəsində məlumat verib. "Təəssüflə bildirirəm ki, dünən mənə Ermənistana giriş qadağan edilib. Baş nazir Nikol Paşinyanın əmri ilə mən, Ermənistanda arzuolunmaz şəxs sayılıram. 40 il Ermənistan, erməni xalqı və Ermənistan dövləti uğrunda döyüşdükdən sonra belə vəziyyətə düşmək məni incidir. Nikol Paşinyanın bu qərarı onun üzərinə götürdüyü məsuliyyətin öhdəsindən gəlmədiyini bir daha göstərir", - deyə o, yazıb.

***Gülayə Mecid***

# "Bu il ərzaq qıtlığı, qiymət artımları ən ciddi problemlərdən biri olacaq"

## Vüqar Bayramov: "Strateji ərzaq ehtiyatlarının artırılması yolu ilə ölkəmizdə ərzaq qıtlığının yaranmasının qarşısı alınmalı və qlobal ərzaq qıtlığının Azərbaycan bazarına təsirləri minimumlaşdırılmalıdır"



***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a müsahibə verib. Deputat ipoteka kreditlərinin faizlərinin aşağı salınmasından, əmək pensiyalarına təklif edilən dəyişikliklərdən, ərzaq təhlükəsizliyindən və başqa məsələlərdən danışıb.***

***-Vüqar müəllim, ipoteka kreditləri ilə bağlı ilkin ödənişlərin və faiz dərəcələrinin yenidən müzakirəsinə ehtiyac olduğu bildirilir. Məlum olduğu kimi, gənclərin əsas problemlərindən biri də ev məsələsidir. Bu baxımdan, ipoteka kreditlərinin faiz dərəcələrinin aşağı salınması gözlənilirmi?***

-İpoteka kreditlərinin şərtlərinə baxılması və onun təkmilləşdirilməsi həmişə prioritet məsələlərdən biridir. Gənc ailələrin ipoteka kreditlərinə böyük ehtiyacı var. Güzəştli ipoteka kreditləri 4 faizlə və maksimum 100 min manat olmaq şərti ilə təklif edilir. Sosial ipoteka kreditləri birbaşa dövlət büdcəsindən maliyyələşdirilir və ayrılan vəsait müvəkkil banklar vasitəsi ilə vətəndaşlara təqdim olunur. Həm güzəştli ipoteka kreditlərinin həcminin artırılmasını, həm də faizin aşağı salınmasını təklif edirik. Müqayisə etdikdə görərik ki, hazırda təklif edilən 4 faiz kiçik hesab oluna bilər. Amma bunun büdcədən maliyyələşən ipoteka kreditləşməsi olduğunu nəzərə alsaq, güzəştli kreditlər üzrə faizin 3-ə endirilməsi mümkündür. Müvəkkil banklar və ipoteka fondunun xərclərini də nəzərə alsaq, bu kreditləri 3 faizə qədər endirmək olar. Bu, həmin kreditlərdən daha güzəştli şəkildə istifadə olunmasına imkan yaradacaq. Eyni zamanda, güzəştli kreditlərin həcminin artırılması vacibdir. Kreditlərin həcminin artırılması daha çox vətəndaşımızın bu kreditlərdən istifadə etməsinə gətirib çıxara bilər.

***-Ötən ay "Əmək pensiyaları haqqında" qanunda dəyişikliklər təsdiqləndi. Qanuna bir sıra mühüm dəyişikliklər edildi. Bu qanuna hansı yeni dəyişikliklərin olmasını təklif edərdiniz?***

-"Əmək pensiyaları haqqında" qanuna edilən dəyişikliklər pensiya kapitalının daha səmərəli xərclənməsi və eyni zamanda əmək pensiyalarına əlçatanlığın artırılması məqsədi daşıyır. "Əmək pensiyaları haqqında" qanunun təkmilləşdirilməsi, pensiya sisteminin yenilənməsi mütəmadi olaraq həyata keçirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən də bildirilib ki, yeni pensiya konsepsiyası çərçivəsində pensiya sisteminin təkmilləşdirilməsi ilə bağlı işlər davam etdiriləcək. Biz də əmək pensiyaları ilə bağlı bir sıra məqamların nəzərə alınmasını təklif edirik. Güzəştli pensiya yaşı ilə bağlı şərtlərə diqqət yetirsək, burada 5 və daha çox uşağı olan analar, yeni dəyişiklikdən sonra əgər uşaqlar atanın himayəsindədirsə, o zaman ata da daha tez pensiyaya çıxmaq hüququna malik olur. Nəzərə alınmalıdır ki, 5 və daha çox uşağı olan ailələrin sayı çox deyil. Ona görə təklif edirik ki, bu say mərhələli şəkildə 3-ə endirilsin. Belə ki, 3 və daha çox uşağı olan ailələr üçün pensiya yaşında güzəşt olsun, daha tez pensiyaya çıxmaq hüququ əldə etsinlər. Bu zaman daha çox ailələrin güzəştdən istifadəsi mümkün ola bilər. Eyni zamanda, pensiya kapitalından istifadə ilə bağlı təkliflər də vermişik. Pensiya kapitalından istifadə imkanlarının genişləndirilməsi, yalnız minimum pensiya kapitalı məbləğinin deyil, həm də orta məbləğin müəyyənləşdirilməsi, orta məbləğdən daha çox yığımı olan vətəndaşlarımıza daha tez pensiyaya çıxmaq hüququnun verilməsini təklif etmişik. Bu təkliflərə baxılması və gələcəkdə qəbul olunması pensiya sisteminin daha da təkmilləşdirilməsinə gətirib çıxaracaq.

***-Uzun müddətdir quru sərhədləri bağlıdır. Artıq yay fəslinin yarısı geridə qalıb. Quru sərhədlərinin açılmaması turizm sektoruna necə təsir göstərir?***

-Turizmin inkişafı baxımından quru sərhədlərinin açılması çox vacibdir. Statistika göstərir ki, əvvəlki illə müqayisədə 2022-ci ilin ötən aylarında Azərbaycana gələn turistlərin sayı artsa da, pandemiyadan əvvəlki dövrlə müqayisədə turistlərin sayında azalmalar var. Turist sayının artırılması həm də quru sərhədlərinin açılmasından asılıdır. Azərbaycana turistlərin 70 faizdən çoxu quru sərhədlərimizin olduğu ölkələrdən gəlir. Quru sərhədləri yalnız turizmin inkişafı baxımından deyil, həm də vətəndaşlarımızın daha asan, iqtisadi baxımdan ucuz xaricə getməsini təmin edir. Quru sərhədlərinin açılması həm iqtisadi, həm də turizm baxımından vacib olmaqla yanaşı, burada epidemoloji vəziyyət də nəzərə alınmalıdır. Belə ki, yalnız Azərbaycan deyil, xüsusən qonşu ölkələrdəki vəziyyətin, dinamikanın nəzərə alınması və buna uyğun qərarın verilməsi çox vacibdir. Quru sərhədlərinin açılması turizm və iqtisadi prosesləri dəstəkləməklə yanaşı, yoluxma sayının artmasına gətirib çıxarmalı deyil. Sərhədlərin açılması ilə bağlı qərar verilən zaman həm də regiondakı epidemoloji vəziyyət nəzərə alınır. Sözsüz ki, turizmin inkişafı baxımından quru sərhədlərinin açılması vacib faktorlardan biridir. Quru sərhədləri ölkəyə gələnlərin sayının müəyyənləşdirilməsinə birbaşa təsir göstərir.

***-Ölkəmizin ərazisinin 20 faizə yaxını müharibə nəticəsində tamamilə dağıdılıb. 30 ilə yaxın işğal müddətində Qarabağda infrastrukturun dağıdılması ilə Azərbaycana milyardlarla ziyan vurulub. Son 2 ildə işğaldan azad olunan ərazilərimizin bərpası üçün dövlət büdcəsindən 4 milyard 870 milyon manat vəsait ayrılıb. Qarabağın bərpası üçün nə qədər vəsait tələb olunur?***

-Qarabağ və Şərqi Zəngəzurun bərpası böyük vəsait tələb edir. Bu, mərhələli şəkildə həyata keçirilən bir prosesdir. Azərbaycan büdcədən son iki ildə 4 milyard 870 milyon manatın ayrılması barədə qərar verdi. Kifayət qədər böyük vəsaitdir. 30 illik işğal dövründə həmin ərazilər tamamilə dağıdılıb. Bu isə həmin ərazilərimizin bərpa və yenidənqurulması üçün daha çox vəsaitin tələb olunması anlamına gəlir. Azərbaycan daxili mənbələr hesabına, hər hansı bir borclanmaya getmədən, xaricdən vəsait cəlb etmədən bərpa və yenidənqurma işlərini aparır. Növbəti illərdə də dövlət büdcəsindən bu istiqamətə vəsaitin ayrılması nəzərdə tutulacaq. Amma bu məsələdə donor dəstəyi çox önəmlidir. Beynəlxalq ictimaiyyətin nümayəndələri ilə görüşlərimizdə də qeyd edirik ki, Ukraynaya olan donor dəstəyinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası istiqamətində həyata keçirilməsi vacibdir. Donor dəstəyi, bu istiqamətdə vəsaitlərin cəlb edilməsi bərpa və yenidənqurma prosesinin daha tez başa çatmasına gətirib çıxara bilər. Bütün yaşayış məntəqələri layihələşdiriləndən sonra tələb olunan vəsaitin həcmi müəyyənləşəcək. Bərpa, yenidənqurma, məskunlaşma, daha sonra reinteqrasiya böyük vəsait tələb edir. Azərbaycan mərhələli şəkildə öz maliyyə resursları hesabına bunu reallaşdırır. Prosesin daha intensiv olması üçün beynəlxalq donor dəstəyinin həyata keçirilməsi çox vacibdir.

***-2022-ci ilin dövlət büdcəsinə dəyişikliklərdə ərzaq təhlükəsizliyi üzrə tədbirlərin təmin edilməsi üçün 193 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu vəsait hansı istiqamətə xərclənəcək?***

-Qlobal ərzaq qıtlığının müşahidə olunduğu, qiymətlərin yüksəldiyi bir dövrdə ərzaq təhlükəsizliyi məsələsi kifayət qədər aktualdır. Bu istiqamətdə dövlət tərəfindən preventiv addımlar davam etdirilir. Nazirlər Kabineti tərəfindən güzəşt mexanizminin genişləndirilməsi, ehtiyatlarımızın artırılması ilə bağlı işlər həyata keçirilib. Xüsusən, minimum istehlak səbətinə daxil olan məhsulların istehsalı üçün iş adamlarına iki yeni təşviq mexanizmi təklif olundu və tətbiq edilir. Onlardan biri aşağı faizli kreditlərə çıxışların artırılması, ikinci isə banklardan götürülən kreditlərin faizlərinin bir hissəsinin subsidiya edilməsi ilə bağlı idi. Bu istiqamətdə işlər davam etdirilir. 2022-ci ilin dövlət büdcəsi dürüstləşdirilən zaman yenidən bu istiqamətdə 193 milyon vəsaitin ayrılması nəzərdə tutuldu. Bu vəsait daha çox Azərbaycan üçün strateji ərzaq ehtiyatlarının genişləndirilməsinə sərf olunacaq. Etiraf etmək lazımdır ki, qlobal ərzaq qıtlığının olmasına baxmayaraq, Azərbaycanın istehlak bazarında tarazlıq qorunub saxlanılır. Azərbaycanda ərzaq məhsulunun qıtlığı müşahidə olunmur. Bu da atılan addımlarla bağlıdır. Bu addımlar bundan sonra da davam etdiriləcək. Ərzaq qıtlığı, qlobal istehlak bazarında qiymət artımlarının 2022-ci ildə dünyanın ən ciddi problemlərindən biri olacağı gözlənilir. Bu ilin növbəti aylarında da bu prosesin davam edəcəyi proqnozlaşdırılır. Ona görə də davamlı olaraq preventiv addımlar atılır. Burada məqsəd ondan ibarətdir ki, strateji ərzaq ehtiyatlarının artırılması yolu ilə ölkəmizdə ərzaq qıtlığının yaranmasının qarşısı alınsın və qlobal ərzaq qıtlığının Azərbaycan bazarına təsirləri minimumlaşdırılsın.

***Anar Kəlbiyev***

# Rektorların "təhsilhaqqı taləsi"

## Vətəndaşları narazı salan daha bir çoxillik problem: universitetlərdə fantastik qiymətlər və təhsilini yarımçıq qoyan 7 min tələbə!

***Hazırda ölkəmizdə 51 ali təhsil müəssisəsində 187 min tələbə təhsil alır. Onlardan 31%-i ödənişsiz 69%- i isə ödənişli ixtisaslardır.***

Universitetlərimizdə illik təhsil haqqı 1200- 6000 manat arasında dəyişir. Bu rəqəmlər isə az qala hər il yüksəlir. Mütəxəssislər də, vətəndaşlar da düşünürlər ki, təhsil haqqının bu qədər yüksəlməsi real vəziyyətlə tərs mütənasibdir. Çünki təhsilin səviyyəsi olduqca aşağıdır. Təhsil haqqı isə dünyanın adlı-sanlı universitetlərində tələb olunan illik ödənişdən qat-qat yüksəkdir.

Bu günlərdə yerli TV-lərdən birinin mövzu ilə bağlı hazırladığı videomaterialda vətəndaşların bu məsələ ilə bağlı narazılığı açıq şəkildə ifadə olunmuşdu. Kimi demişdi ki, "2013-cü ildə məzun olmuşam. İmkansızlıqdan universitetə qəbul ola bilməmişəm. Fəhlə işləyirəm", kimi bildirmişdi ki, "2200 çoxdur tələbə üçün, elə tələbələr var özləri işləyir qazanırlar. Türkiyədə illik ödəniş min manatdır", kimi də vurğulamışdı ki, "savadlı uşaqlar var, təhsil haqqın ödəyə bilmədikləri üçün təhsildən uzaqlaşırlar".

"Elə adam var 600 manata işləyir , o pulu necə versin ? Mən işləmirəm deyə fikirləşirəm gələn ilin illik ödənişini necə düzəldim" deyən də var idi, "Moskvada illik ödəniş min manatdır, amma burada iki üç min manatdan çoxdur " söyləyən də.

Mövzu ilə bağlı danışan təhsil üzrə ekspert Elçin Əfəndi də bəyan eləmişdi ki, bu qədər yüksək təhsil haqqına rəğmən universitetlərdə yaradılan şərait də aşağı səviyyədədir. Başqa bir ekspert Kamran Əsədov isə vurğulamışdı ki, təhsilin əmək bazarının tələblərinə və müasir standartlara cavab verməməsi gənclərin Azərbaycanda oxuma meylni də azaldır, aşağı salır.

Düzünü desək, bu kifayət qədər ciddi, aktual problem əslində illərdən bəridir gündəmə gəlir, lakin onun həlli istiqamətində, çox təəssüf ki, konkret addımların atıldığının şahidi olmuruq. Elə "Unikal" olaraq biz də vaxtilə sözügedən mövzuda araşdırma dərc eləmişdik. Bildirmişdik ki, kədərli paradoks yaranıb: 22 yaşlı bir məmur oğlu təkcə qol saatına 2,5 milyon manat xərcləyir, başqa bir məmurun "çiçəyi burnunda" övladı ümumi dəyəri bir neçə milyon manat olan inomarkalardan ibarət maşın kolleksiyasını fəxrlə nümayiş etdirir, lakin onlarla təxminən eyni yaşlarda olan sadə vətəndaşın övladı isə bir neçə min manatdan ötrü təhsilini davam etdirməkdən imtina etmək məcburiyyətində qalır!

Üstəlik, belələri - məmur balaları üçün hətta "semiçka pulu" da sayılmayacaq məbləğlərə görə təhsilini yarımçıq qoyanlar, ali məktəbləri tərk edənlər bir deyil, beş deyil, heç yüzlərlə də deyil, minlərlədir.

Daha da konkretləşdirək.

Son 5 il ərzində 7 min tələbə təhsil haqqını ödəyə bilmədiyi üçün təhsildən imtina edib. Nəzərə alsaq ki, 2 il ərzində pandemiya dönəmində universitetlər dərslər keçirilmədiyi üçün xərclərin böyük əksəriyyətindən azad oldular. Qardaş ölkə Türkiyədə bu məqam nəzərə alınaraq təhsil haqqı 40% azaldılmışdı. Bizdə isə əksinə, ödəniş tələbi artmaqdadır. Maraqlıdır, universitet rəhbərləri, rektorları bu absurdu, bu anormallığı nə ilə izah edə bilərlər? Ümumiyyətlə, izah edə bilərlərmi?!

Düzdür, ekspertlər də, elə cəmiyyətin sıravi kəsimi də düşünür ki, Nazirlər Kabineti illik təhsil haqları ilə bağlı məsələyə yenidən baxmalıdır. Eyni zamanda tələbə kredit şərtləri yumşaldılsa, universitetlər ödənişlərdən azad olsa, tələbələr də ən azından təhsillərini yarımçıq saxlamaq məcburiyyətində qalmazlar.

Həmçinin rektorlardan bu məsələdə təşəbbüskar olmaları istənilir. Bir halda ki, onlar rəhbərlik etdikləri ali məktəblərdə təhsilin səviyyəsini qaldıra, onları dünyanın ən yaxşı universitetlərinin siyahılarına daxil edə bilmirlər, heç olmasa, təhsil haqlarını vətəndaşların cibinə uyğunlaşdırmaq barədə düşünə bilməzlərmi?!

Bunu da qeyd etməkdə fayda var: maddi çətinliyi ucbatından təhsil almaqda çətinlik çəkən tələbələrin təhsildən imtina etməsi məsələsinə uzun illərdən bəridir Təhsil Nazirliyi (TN) də, demək olar, susqun yanaşır. Elə son zamanlar bu mövzuda yenidən aktuallaşan müzakirələrə də nazirlikdən konkret rəsmi münasibət açıqlanmayıb. Hər halda nazirliyin son 5 ildə 7 min tələbənin maddi çətinlik ucbatından təhsilini davam etdirməməsi faktı ilə bağlı mövqeyi də məlum deyil. Halbuki sözügedən rəqəm probləmin ciddiliyindən xəbər verir və TN-in məsələyə reaksiyası maraqlıdır. Maraqlı və vacibdir!

***Toğrul Əliyev***




# ÜST koronavirusla bağlı Azərbaycana tövsiyələr verdi

***Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) payız fəsli üçün "buster" doza ilə bağlı tövsiyələr verib.***



ÜST-nin Azərbaycan Nümayəndəliyindən "Unikal"a verilən məlumata görə, COVID-19 vaksinasiyası ilə bağlı cari vəziyyət qurumun Avropa regionunda xəstəliyin mövcud və proqnozlaşdırılan epidemiologiyası və "Omikron" ştamına qarşı peyvəndin effektivliyinə dair sübutlara əsaslanaraq, İmmunlaşdırma üzrə Avropa Texniki Məsləhət Qrupu (ETAGE) üzv dövlətlərə yerli vaksinasiya strategiyasına uyğun olaraq müvafiq qruplarda COVID-19 peyvəndinin ilkin 2 dozası və 1-ci "buster" dozasının qəbul edilməsi ilə bağlı səyləri gücləndirməyi tövsiyə edir.

Qeyd olunub ki, əlavə qorunmanı təmin etmək, ağır xəstələnmə, xəstəxanaya yerləşdirmə və COVID-19-dan ölüm riskini minimuma endirmək və səhiyyə xidmətlərinin davamlılığını maksimum dərəcədə artırmaq üçün ölkələr bu addımları atmalıdır.

5 yaşdan yuxarı orta və ağır immunçatışmazlığı olan şəxslərə və onların yaxın təmaslarına ikinci "buster" dozanın tətbiq edilməsi, yaşlılar, tibb işçiləri və hamilə qadınlar da daxil olmaqla, xüsusi risk qruplarına ikinci "buster" dozanın tətbiq edilməsi, mümkün olan hallarda COVID-19 və mövsümi qripə qarşı peyvəndlərin birgə tətbiqinin nəzərdən keçirilməsi tövsiyələr arasında yer alıb.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan Nümayəndəliyi COVID-19 vaksinasiyasına dair ən son tövsiyələri yerli səhiyyə tərəfdaşları ilə bölüşüb.

# Səfir Polad Həşimovun anası ilə görüşdü



***Türkiyənin Azərbaycandakı səfiri Cahit Baxçı milli qəhrəman, şəhid general-mayor Polad Həşimovun anası Səmayə Həşimova ilə görüşüb.***

"Unikal" xəbər verir ki, o, bu barədə tviter səhifəsində yazıb.

"Şəhidliyi ilə Vətən müharibəsinin başlanmasına zəmin yaradan qəhrəman komandir general Polad Həşimovu şəhadətinin ikinci ilində rəhmətlə anırıq. Səmayə anaya, qardaşı, bacısı, yoldaşı, övladları, silah yoldaşları, qəhrəman Azərbaycan ordusuna və millətinə baş və cansağlığı arzulayıram", - paylaşımda bildirilib.

# Nazir müavini Lourens Mereditinlə görüşdü

***Avropa Komissiyasının Qonşuluq və Genişlənmə danışıqları üzrə Baş Direktorluğunda bölmə rəhbəri Lourens Mereditin rəhbərliyi ilə ölkəmizdə səfərdə olan nümayəndə heyəti rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətovla görüşüb.***



"Unikal" xəbər verir ki, görüşdə beynəlxalq maliyyə institutlarının - Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Avropa İnvestisiya Bankı (EIB) və Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəsmiləri də iştirak ediblər.

Görüş zamanı Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığı üzrə İqtisadi və İnvestisiya Planının (EİP) Azərbaycanda icrasına dair məsələlər müzakirə olunub.

Eyni zamanda ölkəmizin Trans-Avropa Nəqliyyat Şəbəkələrinə (TEN-T) daxil olan avtomobil və dəmir yolları şəbəkələri ilə bağlı layihələrdə iştirakı və Əlaqəlilik üzrə Şərq Tərəfdaşlığı İnvestisiyaları (EPIC) proqramı üzrə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# "Qəbul imtahanlarının ikinci cəhdi daha yaxşı olacaq" - DİM sədri



***"Ali məktəblərə qəbul imtahanlarının ikinci cəhdinin birincidən daha yaxşı olacağı gözlənilir".***

"Unikal" xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Mələykə Abbaszadə jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, səbəb abituriyentlərin II cəhdə daha yaxşı hazırlaşmalarıdır: "Müsabiqə vəziyyəti təkcə keçid ballarından asılı deyil. Verilən plan yerləri ilə də bağlıdır. Bu il təqdim olunan plan yerləri ötən illə müqayisədə 4 minə qədər çoxdur. Müəyyən ixtisaslarda çoxalma var. Dəqiq məlumat vermək üçün hər bir ixtisasla bağlı əsaslı təhlil və müqayisə aparılmalıdır".

# Kamran Əliyev bu şöbəyə rəis təyin etdi

***Bakı şəhər prokurorluğunda yeni təyinat olub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, Vüqar Nəsibov Bakı şəhər prokurorluğunun Prokurorluqda istintaqa nəzarət şöbəsinin rəisi təyin edilib.

V.Nəsibov bu təyinatdan əvvəl Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin böyük prokuroru vəzifəsində çalışıb.

Xəbəri Baş Prokurorluğun Mətbuat xidmətindən təsdiqləyiblər.

*Gülayə Mecid*

# İnam Kərimov latviyalı həmkarı ilə görüşdü

***Kənd Təsərrüfatı Nazirliyində Azərbaycanda səfərdə olan Latviyanın kənd təsərrüfatı naziri Kaspars Gerhardsın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.***



"Unikal" xəbər verir ki, görüşdə kənd təsərrüfatı sahəsində əməkdaşlıq imkanları geniş müzakirə olunub.

Kənd təsərrüfatı naziri İnam Kərimov ölkəmizdə aqrar inkişaf strategiyasının əsas istiqamətləri, aqrar sahəyə dövlət dəstəyi, həyata keçirilən innovativ layihələr barədə qonaqlara ətraflı məlumat verib. Qeyd olunub ki, Azərbaycanda həyata keçirilən aqrar islahatlar, kənd təsərrüfatı fəaliyyətinin vergidən azad edilməsi, kənd təsərrüfatı texnikası və damazlıq heyvan satışı bazarının liberallaşdırılması Latviyanın aqrar sahədə ixtisaslaşmış şirkətləri üçün geniş investisiya imkanları yaradır. Azərbaycan Latviya ilə iqtisadi və ticari əməkdaşlığın gücləndirilməsi istiqamətində bütün təşəbbüsləri dəstəkləyir. Ölkəmizdə etibarlı və əlverişli biznes mühitinin olduğunu xatırladan nazir latviyalı sahibkarları Azərbaycanda investisiya imkanlarını dəyərləndirməyə çağırıb.

Latviyanın kənd təsərrüfatı naziri cənab Kaspars Gerhards isə öz növbəsində ölkəsinin Azərbaycanla dost ölkələr olduğunu, bütün sahələr üzrə tərəfdaşlıq münasibətlərini inkişaf etdirməyə maraq göstərdiyini deyib. Görüşdə kənd təsərrüfatı sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulanıb.

Bildirilib ki, Azərbaycanla Latviya kənd təsərrüfatı sahəsində müasir texnologiyaların transferi, elmi-tədqiqatların aparılması, aqrar sahədə mütəxəssis hazırlığı və aqrar məhsulların ixracı istiqamətlərində əməkdaşlığı genişləndirə bilər.

Görüş çərçivəsində Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu ilə Latviya Həyat Elmləri və Texnologiyaları Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələləri də müzakirə ediblər.

# "Azəriqaz"da növbəti "Açıq qapı" aksiyası keçiriləcək

***"Azəriqaz" İB-nin inzibati binasında növbəti "Açıq qapı" aksiyası 15 iyul saat 11:00-da başlayacaq.***

"Unikal" xəbər verir ki, aksiya "Facebook" sosial şəbəkəsi üzərindən canlı yayımlanacaq. Vətəndaşların sualları da canlı yayım vasitəsilə cavablandırılacaq. Hər bir media qurumu, QHT nümayəndəsi və sosial şəbəkə fəalları (blogger) bu tədbirə dəvətlidir.

# "Toy oliqarxlarının" şok bahalaşma oyunu...

## Şadlıq saraylarında pandemiyadan sonra "yeni soyğun": keyfiyyət və xidmət aşağı, qiymətlər üzüyuxarı!



***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, iyun ayında şadlıq saraylarında sifarişlərin sayında 63 % artım qeydə alınıb. Bu barədə yerli KİV-in sorğusuna cavab olaraq İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) verilən məlumatda deyilirdi. O da qeyd edilirdi ki, mərkəz qeyd olunan müddətdə qiymət və keyfiyyət üzrə monitorinq aparıb və...***

Və CESD-nin monitorinqinə görə, iyun ayında toy və şənliklərin sayının artmasına baxmayaraq menyuların qiymətinin orta hesabla 5 faiz bahalaşdığı ortaya çıxıb!

Özü də necə bahalaşma! 40 manatadək olan menyularda qiymət artımları 3 faiz, 40-80 manat arasındakı menyularda 5 faiz, 80 manatdan yüksək qiymət təklif edilən menyularda isə artım 7 faiz olub.

Eyni zamanda, monitorinqlər xidmət keyfiyyətinin azalmasını müşahidə edib. Belə ki, ötən müddətdə xidmətçilərin sayında müşahidə edilən azalma xidmət keyfiyyətinin aşağı düşməsinə səbəb olub.

Bir sözlə, "toy oliqarxları"nın əməlli-başlı gəlhagəlidir.

Təsəvvür edin, toyların sayı artır, məntiqlə isə bu rəqabət ortamı deməkdir və qiymətlərdə azalma olmalıdır. Ancaq həm toylar, həm də qiymətlər artıb. "Toy oliqarxlarımız", necə deyərlər, "bir güllə ilə iki quş vurublar".

Bu da azmış kimi, xidmət keyifiyyətini azaldıblar. Yəni həm toyların çoxluğundan, həm qiymətlərin artımından, həm də xidmətçi sayını azaltmaqdan qazanıblar. İtirən isə toy edən vətəndaşlar olublar - əksəriyyəti qeyri-rəsmi şəkildə məmurlara, ya da onların himayə etdiyi iş adamlarına məxsus olan şadlıq evlərinə daha böyük məbləğdə pul ödəyiblər, əvəzində daha aşağı xidmət alıblar. İtirənlər siyahısına yalnız toy sahibi yox, onun qonağı olan vətəndaşlar da daxildir. Yazıldıqları yüksək nömərin əvəzində aşağı xidmətlə qarşılaşıblar.

Hələ bu harasıdır? Mövzu ilə bağlı söhbətləşdiyimiz və adının çəkilməsini istəməyən bir şadlıq sarayı administratorunun sözlərinə görə, bahalaşan qiymətlər fonunda aşağı düşən yalnız xidmətin deyil, həm də müştərilərə təklif olunan qidaların keyfiyyətidir. Onun sözlərinə görə, hazırda toylarda verilən mövsümi meyvələr və tərəvəzlər belə müştərilərdə mütəmadi narazılıq doğurur. Çünki həmin meyvə-tərəvəzlər alınarkən şadlıq evləri onların keyfiyyətinə deyil, qiymətinə üstünlük verirlər. "Ucuz ətin isə, əlbəttə ki, şorbası olmaz" - administrator əlavə edir.

Ət demişkən... Toylarda verilən ət yeməklərinin, xüsusilə, kababların həcmi də azaldılıb. Normalda həmin yeməklər toyun gedişində qonaqların istəyi ilə yenidən verilməlidir, lakin bu, son zamanlar, demək olar, qeyri-mümkündür. "Artıq "dobavka" söhbəti aradan qalxıb, həm yeməklərin həcmi azalıb, həm də onu təkrarlamaq çətin məsələdir. Buna görə toyda iştirak edən qonaqlarla şadlıq evi administratorları, xüsusən də administratorlar arasında mübahisələr getdikcə adiləşir" deyə müsahibimiz bildirib.

O bizimlə söhbətində bu fikirlə də qeyd-şərtsiz razılaşıb ki, hazırda toylar vətəndaşların maraqlarına ümumiyyətlə cavab vermir. "Onsuz da əvvəlki illərdə də toylardan əsas qazanclı çıxan şadlıq evləri idi. İndi isə vəziyyət toy sahiblərinin tamamilə ziyanınadır. Ancaq şadlıq evlərinin durumunu da nəzərə almaq lazımdır. Pandemiyaya görə toylar ləğv edildi, şadlıq evi sahibləri xeyli ziyana düşdülər, uzun müddət işləmədilər. Nəticədə şadlıq evlərini saxlamaq üçün ciblərindən xərcləməli oldular. Digər tərəfdən, bütün sahələrdə bahalaşma var. Ona görə də heç kimi qınamalı deyil" - həmsöhbətimiz əlavə edib.

Lakin heç nə "toy oliqarxlarına" həm xidmətin, həm qidaların, ərzaqların keyfiyyətini aşağı salıb əvəzində toy qiymətlərini bu qədər yüksəltmək haqqı vermir.

Ən absurd vəziyyət isə az qala eyni menyular arasındakı kəskin qiymət fərqləridir. Bu fərq Bakı ilə regionlar arasında daha aydın görünür. Məsələn, istənilən əyalət rayonunun şadlıq sarayındakı menyular xüsusilə keyfiyyət baxımından paytaxtın şadlıq saraylarından xeyli yüksəkdir. Əvəzində isə qiymət baxımından Bakının şadlıq sarayları "əl yandırır". Əlbəttə, paytaxtla bölgələrdəki şadlıq evlərinin icarə haqları və .s. baxımından da birincilərin əleyhinə fərq var, ancaq heç nə "toy oliqarxlarına" müştərilərin sağlamlığını və məmnuniyyətini arxa plana atıb (həm də həmişəki kimi!) yalnız və yalnız öz maraqlarını düşünmək üçün əsas vermir.

Bizdən bu qədər...

Ümid edək ki, bundan sonrası aidiyyatı dövlət qurumlarının diqqətində olacaq.

*Sənan Mirzə*

# Hacıbala Abutalıbov biznesini genişləndirir

## Məşhur brend Bakıdakı şəbəkəsini genişləndirməyə qərar verdi, köhnə iddialar yenidən gündəmə gəldi

***Ötən ay məlumat yayıldı ki, Azərbaycanda fəaliyyət göstərən ən məşhur restoran brendlərindən biri, Türkiyənin məşhur "Özsüt" restoran markası ölkədə yeni restoranların açılmasına hazırlaşır. Şirkət yeni restoranların fəaliyyətə başlaması ilə bağlı yerli investorlara françayzinq şərtlərini də açıqlamışdı. "Özsüt" brendinin 80-dən çox yaşı var. Şirkətin tarixi İzmirdə Kemeraltında 16 kvadratmetrlik bir məkanda başlayıb. 1938-ci ildə burada aşpaz Səfər "Özsüt muhallebicisi" adlı dükan açıb. Orada qatıq, qaymaq və şirniyyat satılırdı. 1980-ci ildə isə idarəçiliyi üzərinə götürən İbrahim Urlulu "Özsüt"ün əsasını qoyub. "Özsüt"un ənənəvi şirniyyatları Osmanlı mətbəxindən gəlir. Hazırda Türkiyədə "Özsüt"ün 180-dən artıq mağaza və restoranı fəaliyyət göstərir. 2014-cü ildə "Özsüt"ün sahibi "STP Gıda"nın 70% səhmi "Infinity Invest Holding"ə satılıb.***



2014-cü ilin may ayında isə "Özsüt"un Bakıda ilk restoranı fəaliyyətə başlayıb. Hazırda sözügedən brendin Bakıda 5 restoranı var. Bunlardan ən məşhuru - "Atatürk Parkı"ndakı restorandır. Bundan başqa, "Özsüt"ün Fəvvarələr meydanında, Qış Bağında, "Gənclik Mall"da, Yasamalda, Mətbuat prospektində ("Özsüt Elmlər") restoranları var.

"Özsüt"lər Bakıda daha çox ailəvi və işgüzar görüş restoranları kimi tanınır.

Bəziləri bu brendin Azərbaycandakı fəaliyyətini H.Abutalıbovla əlaqələndirirlər. İddia edilir ki, sabiq mer "Özsüt"ün ölkəmizdəki fəaliyyətini himayə edir, bu fəaliyyətə isə onun oğlu İsrafil Abutalıbov tərəfindən nəzarət olunur. Elə brendin Bakıda yeni restoranlar açmaq niyyətini bəyan eləməsindən sonra da bəziləri bunu Hacıbala müəllimin biznesini genişləndirmək cəhdi kimi şərh etmişdilər.

"Unikal"ın araşdırması zamanı məlum olub ki, adıçəkilən restoranlar şəbəkəsi hələ üç il öncə bu brendin Azərbaycandakı fəaliyyətinin Hacıbala Abutalıbov və onun oğlu İsrafil Abutalıbovla əlaqəsini inkar edib. "Restoranların sahibi başqa şəxsdir, bu restoranlar nə Abutalıbovların, nə də hər hansı digər vəzifəli şəxslərin nəzarətində və tabeliyində deyildir" deyə o vaxt restoranlar şəbəkəsinin hüquqşünası Roman İsmayılov yerli KİV-ə bildirib.

"Özsüt" restoranlar şəbəkəsinin təsisçisinin tamam başqa bir şəxs olduğunu və həmin restoranların da elə onun tərəfindən idarə olunduğunu qeyd edən R.İsmayılov daha sonra əlavə eləmişdi: "Ola bilsin ki, "Özsüt"ün icarəyə götürdüyü mülklərdən hansısa biri Hacıbala Abutalıbova yaxın şəxslərin mülkiyyətindədir. Amma "Özsüt" restoranlar şəbəkəsi Abutalıbovların deyil".

Lakin restoranlar şəbəkəsindən verilən bu açıqlama inandırıcı qəbul edilmədi. Elə ona görədir ki, üç ildir "Özsüt"dən söhbət düşən kimi onun Abutalıbovlara bağlılığından danışılır. Bu mənada şəbəkənin Bakıda yeni restoranlar açmasının bəziləri tərəfindən əslində Hacıbala müəllimin yeni restoranlar açmağa hazırlaşması kimi qələmə verilməsi təəccüb doğurmamalıdır.

Qeyd edək ki, sabiq merin oğlu İ.Abutalıbovun Türkiyədə geniş biznesi, bundan dolayı da ciddi əlaqələri var. Bir müddət əvvəl media yazıb ki, oğul Abutalıbov 2015-ci ilin iyul ayının 27-də Türkiyə vətəndaşlığı alıb və soyadını dəyişdirib. İndi o, İsrafil Abutalıbdır. Onun İstanbuldakı yaşayış yeri Bakırköydə, dəbdəbəli şəxsi villaların tikildiyi Şənlikköy məhəlləsidir (Şəhid Müəmmər Yüzsürən küçəsi, ev 1/5, mənzil 2). Yaşıllıqlarla əhatə olunmuş bu beşmərtəbəli mülk həm də İ. Abutalıbın həyat yoldaşı Nailə Abutalıbın (Əzimova) ev ünvanıdır.

Sabiq merin oğlunun qardaş ölkədə daşınmaz əmlak və turizmlə yanaşı, restoran biznesi ilə də məşğul olduğu deyilir. Elə bu da Abutalıbovların "Özsüt"ü Bakıya gətirdikləri və qısa müddətdə paytaxtın mərkəzi ünvanlarında həmin brend altında çoxsaylı restoranlar açdıqları barədə iddiaları qüvvətləndirib.

Sözügedən şəbəkə belə iddiaları yalanlayır, yuxarıda da bildirdiyimiz kimi, "Özsüt"ün Azərbaycandakı sahibinin rəsmi şəkildə tamamilə başqa şəxs olduğunu iddia edir, lakin bu istiqamətdə nə mübahisələr, nə müzakirələr bitmir. Təəccüblü deyil: Azərbaycanda rəsmi sahibi başqası olan o qədər şirkət, restoran, şadlıq evi və s. var ki, sonradan onun arxasından hansısa yüksək vəzifəli şəxsin çıxdığını az görməmişik. Bir sözlə, rəsmiyyətlə reallıq ölkəmizin təcrübəsində tez-tez toqquşur. Odur ki, qalırsan məəttəl, bilmirsən kimə və nəyə inanasan...

***Sənan Mirzə***

# Şəhid atası narazılıq edir

## İki dövlət qurumu "olar" deyir, Suraxanı İH isə icazə vermir



***Vətən müharibəsi şəhidi İsabala Hüseynovun atası Ceyhun Hüseynov Suraxanı Rayon İcra Hakimiyyətindən şikayətçidir.***

Ceyhun Hüseynov "Unikal"a müraciətində bildirib ki, onun Qaraçuxur qəsəbəsi ərazisində "butka" yerləşdirib alver etməsinə mane olunub:

"Oğlum şəhid olana qədər güzəranımız normal idi. Övladımın şəhadətindən sonra da Cənab Prezidentimiz və dövlətimiz sağ olsun, köməklik etdilər. Mənim "butka"m var idi. Onu götürdüm, Suraxanı rayonu Qaraçuxur qəsəbəsində yerləşdirib pirojki satmağa başladım. Suraxanı Rayon İcra Hakimiyyətinin əməkdaşları isə gəlib dedilər ki, olmaz. "Butka"nı götürüb apardılar. Baxmayaraq ki, heç kimə mane olmurdum.

Vaxtilə sözügedən məsələ ilə bağlı rayonun icra başçısı Əziz Əzizovun qəbuluna getmişdim. Əziz Əzizov bu məsələnin onun səlahiyyətində olmadığını bildirmişdi. Dedi ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə getməliyəm. Həmin Dövlət Komitəsinə getdim və orada mənə şifahi formada dedilər ki, narahat olma, get "butka"nı haraya istəyirsən qoy. Hər ehtimala qarşı Bakı Şəhər İcra Hakimiyyətinə də bu barədə məlumat verdim. Onlar da narahatçılığa əsas olmadığını bildirdilər. Bütün bunlara baxmayaraq, Suraxanı Rayon İcra Hakimiyyətinin əməkdaşları "butka"nı yerləşdirmək üçün icazə vermirlər", - deyə o əlavə edib.

Qeyd edək ki, Ceyhun Hüseynov Birinci Qarabağ müharibəsinin veteranıdır və 1-ci qrup əlildir.

***Murad İbrahimli***

# İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyi qeyd ediləcək



***İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyi qeyd ediləcək.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Sərəncamda qeyd olunub ki, 2022-ci ildə İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyi tamam olur.

Azərbaycanlıların tarixən köklü yaşadığı mühüm elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi tanınan İrəvan mahalında 1882-ci ildən etibarən fəaliyyətə başlayan Teatr sonrakı dövrlər ərzində özünün zəngin repertuarında milli ədəbi-bədii fikrin nailiyyətlərinə daim xüsusi yer verərək tamaşaçıların rəğbətini qazanmış və mədəniyyət salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Azərbaycanın görkəmli səhnə ustalarından bir çoxunun yaradıcılıq taleyi peşəkar milli teatrımızın ayrılmaz tərkib hissəsinə çevrilən bu qocaman sənət ocağı ilə sıx bağlıdır.

Keşməkeşli yol keçmiş və dəfələrlə erməni vandalizminə məruz qalmış Teatrın salnaməsi əzəli Azərbaycan torpaqlarındakı həmyerlilərimizin tarixi taleyinin bir parçasıdır. 1918-1920-ci illərdə ermənilər İrəvanda kütləvi qırğınlar törədərkən aktyor truppası mühacirətə üz tutan Teatr öz fəaliyyətini 1922-ci ildə bərpa etmiş, Azərbaycan ziyalılarının fədakarlığı sayəsində 1928-ci ildə müvafiq qərarla dövlət teatrı statusunu almış, 1935-ci ildən isə böyük dramaturq Cəfər Cabbarlının adını daşımışdır.

Azərbaycanlıların Ermənistandan 1948-1953-cü illərdəki deportasiyasından da acı nəsibini alaraq, fəaliyyətini yalnız 1967-ci ildə bərpa edən İrəvan Dövlət Azərbaycan Dram Teatrı 1980-ci illərin sonlarında ermənilərin yenidən başlatdığı etnik təmizləmə və təcavüzkarlıq siyasəti nəticəsində yurddaşlarımızla bərabər didərgin düşmüş, qaçqın həyatı yaşamalı olmuşdur.

1989-cu ildən Bakı şəhərində məskunlaşan Teatr ötən müddətdə ənənəvi repertuarını rəngarəng mövzularda yeni-yeni əsərlərlə daha da genişləndirmiş və bir sıra yaradıcılıq uğurları qazanmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və İrəvan Dövlət Azərbaycan Dram Teatrının xalqımızın mədəni-ictimai həyatında özünəməxsus rolunu nəzərə alaraq qərara alınıb:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Elektron jurnal tətbiq edilən məktəblərin sayı açıqlandı




***Ölkə üzrə 204 ümumi təhsil müəssisəsində e-Jurnal və e-Gündəlik sisteminin tətbiqi davam etdirilir. Sözügedən təhsil müəssisələri Bakı, Sumqayıt şəhərləri və digər 11 bölgədə yerləşir.***

Təhsil Nazirliyindən "Unikal"a verilən xəbərə görə, layihənin məqsədi müəssisə üzrə pedaqoji və inzibati-idarəetmə heyəti tərəfindən elektron qiymətləndirmənin səmərəli təşkili və sənədləşmə prosesinin rəqəmsallaşmasıdır. Bu sistem vasitəsilə hər müəssisə üzrə tədris növbələrinin təyin olunması, dərs cədvəllərinin tərtib edilməsi, elektron profillərin tənzimlənməsi və siniflər üzrə şagird məlumatlarının idarə olunması elektronlaşdırılıb. Həmçinin elektron jurnal şagirdlərin müvəffəqiyyət və davamiyyətini, eyni zamanda mövzular üzrə dərs materiallarının mənimsənilməsi keyfiyyətini təhlil etmək imkanı da yaradır. Tətbiq olunan sistem vasitəsi ilə valideyn-məktəb və valideyn-müəllim əlaqələrinin əlçatanlığı artırılıb.

Hazırda "Elektron jurnal və gündəlik" sistemi 204 təhsil müəssisəsinin 324 357 şagird və 23 337 müəllimini əhatə edir. Növbəti tədris ilindən daha 158 müəssisədə də bu sistemin tətbiqi nəzərdə tutulur. Bununla da "Elektron jurnal və gündəlik" sisteminin 536 646 şagird və 37 448 müəllimi əhatə etməsi proqnozlaşdırılır.

Qeyd edək ki, elektron jurnalın funksionallıqları ilə bağlı istifadəçilərdən gələn tələb və təkliflər nəzərə almaqla hər tədris ilində təkmilləşdirmələr aparılır.

# Aİ Rusiyadan imtina edib, Azərbaycan qazını alacaq

***Avropa Komissiyası Aİ ölkələrinə təbii qaz idxalını artırmaq və boru kəmərini genişləndirmək üçün Azərbaycanla saziş bağlamağı təklif edib.***

"Unikal" "Reuters"ə istinadən xəbər verir ki, layihə Moskvanın Ukraynaya müdaxiləsindən sonra Rusiya qazından asılılığı azaltmaq üçün Aİ-nin səylərinin bir hissəsidir.

"Tərəflər kommersiya məqsədəuyğunluğuna və bazar tələbinə uyğun olaraq 2027-ci ilədək hər il ən azı 20 milyard kubmetr qaz həcmində Cənub Qaz Dəhlizi vasitəsilə Avropa İttifaqına ixrac da daxil olmaqla ikitərəfli təbii qaz ticarətini dəstəkləməyə çalışırlar", - sənəddə deyilir.

Cənub Qaz Dəhlizi boru kəmərləri şəbəkəsinin sonuncu hissəsi olan Trans-Adriatik Qaz Kəməri ötən il İtaliya kimi Avropa ölkələrinə 8 milyard kubmetrdən çox Azərbaycan qazı çatdırıb.

Tədarükün artması həm də Azərbaycandan öz qaz hasilatını genişləndirməyi tələb edəcək. Layihədə qaz istehsalçılarının təhlükəsizliyini təmin etmək üçün "uzunmüddətli, proqnozlaşdırıla bilən və sabit müqavilələrin" vacibliyi vurğulanır.

Bundan əvvəl Azərbaycan bəyan etmişdi ki, Avropaya nəql etmək üçün kifayət qədər qaz ehtiyatı var və lazım gələrsə, qonşu ölkələrə də qaz nəqlini artıra bilər.

***Ağarza Elçinoğlu***

# Bəzi yerlərdə 42 dərəcə isti olacaq

***İyulun 15-nə gözlənilən hava şəraiti açıqlanıb.***

Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz keçəcək. Gün ərzində arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 23-27° isti, gündüz 32-37° isti, Bakıda gecə 25-27° isti, gündüz 34-36° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 50-55 % olacaq.

Azərbaycanın rayonlarında yağmursuz hava olacaq. Lakin gecə və səhər Böyük Qafqaz zonasının şərq rayonlarında qısamüddətli yağış yağacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26° isti, gündüz 35-40°, bəzi yerlərdə 42° isti, dağlarda gecə 10-15° isti, gündüz 26-31° isti olacaq.

# "Zəngəzur dəhlizi" münaqişədən əvvəl belə işləyib...

***44 günlük II Qarabağ müharibəsindən sonra Azərbaycan, Ermənistan və Rusiya dövlət başçıları arasında imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın 9-cu bəndinə əsasən, regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokadadan çıxarılması nəzərdə tutulur.***

Bəyanatın bu bəndində deyilir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir".

Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası deyiləndə Ermənistan ərazisindən keçən "Zəngəzur dəhlizi"nin açılması nəzərdə tutulur.

Rəsmi İrəvan danışıqlarda nəqliyyat kommunikasiyalarının açılmasına qarşı olmadığını bəyan etsə də, hələ ki əməldə razılaşmanı pozmaqla məşğuldur və "Zəngəzur dəhlizi"nin inşasına imkan vermir.

Dəhlizin Azərbaycan tərəfinə aid hissəsində tikinti işləri Vətən müharibəsinin bitməsindən dərhal sonra başlanıb.

"Zəngəzur dəhlizi"ndən keçəcək dəmir yolu xəttinin təməli 2021-ci ilin fevral ayında Prezident İlham Əliyev tərəfindən qoyulub. Horadiz-Ağbənd dəmir yolu xəttinin uzunluğu 110,4 km təşkil edəcək. Tikinti işləri 3 mərhələdə həyata keçirilir. Layihə çərçivəsində 9 stansiyanın (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd), 3 ədəd tunel, 41 ədəd körpü, 3 ədəd qalereya, 7 ədəd yolötürücü və ümumilikdə isə 300-ə yaxın süni mühəndisi qurğunun tikintisi planlaşdırılır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi "Zəngəzur dəhlizi" ilə bağlı avtomobil yolu layihəsini hələ ötən il təqdim edib. Agentlikdən bildirilib ki, yol 4-6 hərəkət zolaqlı olacaq. Dəhlizin Azərbaycan tərəfindəki Horadiz - Cəbrayıl - Zəngilan - Ağbənd hissəsinin uzunluğu 123,8 kilometrdir. Avtomobil yolunun 2024-ci ildə başa çatdırılması nəzərdə tutulur.

Bəs maraqlıdır, Zəngəzur yolu Birinci Qarabağ savaşından öncə, hələ münaqişə başlamazdan əvvəl necə işləyirdi?

Bununla bağlı Modern.az-a danışan Qərbi Azərbaycan İcmasının üzvü, Qafan sakini Baxşeyiş Ələmşahov qeyd edib ki, "Zəngəzur dəhlizi" hələ 1970-1980-ci illərdə, nisbətən sabitlik olan dövrlərdə fəaliyyət göstərirdi. O zaman əsasən dəmir yolu aktiv istifadə edilirdi: "1988-ci ildə artıq Zəngəzur ərazisindən, Qafandan, Mehridən, Sisiandan, Gorusdan azərbaycanlıları kütləvi şəkildə qovmağa başladılar. Həmin vaxta qədər Zəngəzur yolu ilə gediş-gəlişimiz var idi. Amma səfərlər tam sakit, stabil olmurdu. Ermənilər özlərinin xain niyyətlərini, türkləri sevməməklərini həmişə büruzə verirdilər. O zaman Naxçıvan qatarı Mincivana gəlirdi. Mincivan böyük dəmiryol stansiyası sayılırdı. Orada iki qatar yolu ayrılırdı, biri Qafana, digəri Naxçıvana gedirdi. Ermənistanda yaşayan azərbaycanlılar Mincivana qədər rahat hərəkət edirdilər. İnsanlar düşünürdülər ki, Mehri rayonunun stansiyasında düşmək lazım deyil. Çünki ermənilər Naxçıvan qatarı Mehri stansiyasına çatanda həmişə orada dava salırdılar. Ermənilər həm də qorxaq millətdir. Davanı da azərbaycanlıları sevmədiklərindən, özlərinə təhlükə olaraq gördüklərindən ötrü salırdılar.

Mincivandan Qafana gedən ikinci qatardan da azərbaycanlılar istifadə edirdilər. Dəmir yolu əsasən Azərbaycana tabe idi. Bunlar Zəngilan rayonunun tabeliyində olan stansiyalar sayılırdı. Qafan stansiyasının xərcləri, maliyyəsi da birbaşa Azərbaycan tərəfindən ödənilirdi.

Qafan stansiyasında o qədər dava-dalaşlar olurdu ki... Ermənilərdə məşhur ifadə idi "türksən, yoxsa erməni?". Onlar heç vaxt bizi azərbaycanlı adlandırmırdılar, türk deyirdilər, içlərində türklərə qarşı çox dərin bir nifrət var idi.

Bu gün Zəngəzur yolu yenidən bərpa olunur. Ermənistan nə etsə də bunu əngəlləyə bilməyəcək. "10 noyabr bəyanatı"nda dəhlizin açılmasını tələb etdik, Ermənistan da buna razılaşmalı olub. Ermənistan nə qədər gərginlik yaratsa da, ədalət bərpa olunacaq".



***Aysel Aslan***

**6.3.7. işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış";**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ağalı Böyük Qayıdışın başlanğıcı olacaq

## Ağalı sakini Ramil Allahquliyev yurd həsrətinin bitəcəyi günü səbirsizliklə gözləyir



***İşğaldan azad olunmuş Zəngilan rayonunun Ağalı kəndinə ilk köçün tarixi müəyyənləşib. Bu barədə Zəngilan rayonunun Ağalı kənd sakini Vəliyəddin Paşayev deyib. Vəliyəddin Paşayev bildirib ki, o, hazırda Ağalı kəndində təmir-bərpa işlərində çalışır: "Ağalı kəndinə ilkin olaraq 41 ailənin köçürülməsi iyul ayının 19-20-də gerçəkləşəcək. Sabah ailə üzvlərimiz gedib analiz verəcək, testdən keçəcəklər. Bu prosedurlar da köç prosesi üçün nəzərdə tutulub. Artıq köç prosesinə hazırlıqlar görülür".***

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev də açıqlamasında bildirib ki, kəndin 428 nəfər sakini arasında keçirilən sorğu zamanı onların böyük əksəriyyəti doğma yurda qayıtmaq istəyini ifadə edib.

Beləliklə işğaldan azad edilmiş Zəngilan rayonunda ilk "Ağıllı kənd" layihəsinin tətbiq edildiyi Ağalı kəndi gələn ildən düz 29 il ayrı qaldığı sakinlərini qəbul edəcək.

Artıq Ağalıya köçəcək ailələr də məlumdur. 29 ildən sonra öz doğma yurdlarına geri dönəcək sakinlərdən biri də Ağalı kənd sakini Ramil Allahquliyevdir. Həmsöhbətimiz deyir ki, Ağalıya köç Böyük Qayıdışın bir mərhələsidir. R. Allahquliyev yurd həsrətinin sona çatmasına görə çox sevincli olduğunu bildirdi. Ağalı kəndini 18 yaşında tərk edən R. Allahquliyev həmin günü heç vaxt unutmadığını söyləyir: "Ağalıdan çıxan gün yaddaşıma əbədi həkk olunub. Biz atışma olanda Ağalını tərk edərək Beyləqana yığışdıq. Amma 20 gündən sonra evimizə geri qayıtdıq. Bir aydan sonra erməni silahlı birləşmələri Füzulidən yolu bağlayandan sonra biz məcbur qalıb kəndi tərk etməli olduq. Kənddən çıxmağa yol olmadığından Araz çayının kənarına toplaşdıq. Burada bir həftə çay qırağında qaldıq. Çünki İran Araz çayını keçmək üçün müqavilə verməli idi. Arazda su gur olduğundan özümüz İran tərəfə keçə bilmirdik. O zaman nə qədər adamı Arazı keçməyə cəhd edəndə su apardı. Rayonumuzda İsrafil adlı kişinin böyük yük maşını vardı. O vaxt o, Zəngilan sakinlərinin köməyinə çatdı. Həmin yük maşını ilə sakinlərə Arazı keçməyə kömək etdi. Ondan sonra biz Şirvana, oradan da qardaşımla Bakıya gəldik".

Ailədə 6 qardaş, 3 bacı olan Allahquliyevlər Ağalıya köç üçün bütün hazırlıqları görüblər. R.Allahquliyev deyir ki, övladları ali təhsil aldığına görə Bakıda qalmalı olsalar da, o, həyat yoldaşı ilə Ağalıya köçəcək.

Qeyd edək ki, "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir.

Ərazidə ilk olaraq tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub. Ötən ilin Aprelin 26-da Zəngilan rayonunun Ağalı kəndində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə azad olunmuş ərazilərdə salınacaq ilk "Ağıllı kənd"in təməli qoyulub. Bununla ermənilərin işğalçılıq siyasəti nəticəsində dağıdılmış kəndlərimizin ən müasir texnologiyalara əsaslanan qurucuLuq konsepsiyası əsasında bərpasına başlanılıb.

Artıq Ağalı kəndində 200 fərdi evin tikintisi yekunlaşıb. Növbəti mərhələdə isə daha 150 evin tikintisi nəzərdə tutulub. Ağalı kəndində reallaşdırılan layihənin icrası - yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələri - yəni 5 komponent üzrə aparılıb. Bu il kənddə həmçinin DOST Agentliyinin "Şərqi Zəngəzur və Qarabağ" proqramı çərçivəsində "Smart DOST" xidmət məntəqəsi də fəaliyyətə başlayacaq. Kənd sakinləri

qayıtdıqdan sonra "Ağıllı kənd" layihəsi çərçivəsində onlardan bir qrupu üçün kiçik təsərrüfatlar yaradılacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, layihəni nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi və Zəngilan Rayon İcra Hakimiyyəti birgə icra edir. Ağalı sakinlərinə biznes qurmaq üçün avadanlıqlar veriləcək. Kənd sakinlərinin məşğulluğuna və kiçik sahibkarlığa çıxışına dəstək məqsədi daşıyan layihəyə Ağalı kəndinin artıq 30 sakini cəlb olunub. KOBİA tərəfindən onlar üçün biznes təlimləri təşkil edilib. Təlimlərdə iştirakçılara sahibkarlıq fəaliyyəti və müvafiq dəstək mexanizmləri barədə ətraflı məlumat verilib. Növbəti mərhələdə isə Ağalı kənd sakinləri doğma kəndlərinə qayıdandan sonra Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramı çərçivəsində avtoservis, inşaat, məişət avadanlıqları ustası, dərzi, bərbər, gözəllik salonu, un məmulatları istehsalı, ticarət və s. iqtisadi sahələr üzrə avadanlıqlarla təmin olunacaqlar.

Məlumat üçün onu da əlavə edək ki, məhz bu məqsədlə, 2022-ci il iyulun 1-dən etibarən ANAMA tərəfindən Zəngilan icmasına mərhələli şəkildə partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə təlimlərinə başlanılıb. Vətəndaşların işğaldan azad edilmiş ərazilərdə təhlükəsiz və dayanıqlı məskunlaşmasında, bu ərazilərə həyatın qaytarılmasında və ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında körpü rolunu daşıyan "Böyük Qayıdış" layihəsi çərçivəsində Qarabağda genişmiqyaslı minatəmizləmə fəaliyyəti, eləcə də paralel şəkildə yenidənqurma işləri davam etdirilir. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) yaydığı xəbərə görə, intensiv və uğurlu minatəmizləmə fəaliyyəti sayəsində mümkün olan yenidənqurma işləri nəticəsində bu yola tam təhlükəsiz çıxan ilk sakinlər isə Zəngilanın Ağalı kəndinə köçürüləcək vətəndaşlarımızdır. Burada yerləşəcək sakinlərin təhlükəsiz və sağlam şəraitdə məskunlaşması məqsədilə işğaldan azad edilmiş ərazilərdə mövcud mina və partlamamış hərbi sursatların təhlükəsinə dair maarifləndirilməsi əsas prioritetlərdən biridir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## "Şuşanın yenidən ev sahibliyi etdiyini görməyə şadıq" - Yazıçı Anar

***Torpaqlarımız azad ediləndən sonra Prezident İlham Əliyevin ilk fərmanlarından biri Şuşanın mədəniyyət mərkəzi elan edilməsi oldu. Bundan sonra əvvəlki ənənələr bərpa edildi. İkinci ildir ki, Şuşada Vaqif Poeziya Günlərini keçiririk. Həmçinin "Xarıbülbül" festivalı da təşkil olundu.***

"Unikal" xəbər verir ki, bu sözləri Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar deyib.

"Şuşa Azərbaycan mədəniyyətinin beşiyidir. Biz şadıq ki, Qarabağın incisinin belə möhtəşəm tədbir və festivallara yenidən ev sahibliyi etdiyi günləri görə bildik. Bunu Prezident, Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuza borcluyuq", - deyə Anar bildirib.

## Milli Kino Mükafatının qalibi məlum oldu

***Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının geniş iclasında Milli Kino Mükafatı ilə bağlı məsələyə baxılıb.***



Qurumun mətbuat xidmətindən "Unikal"a bildirilib ki, İdarə Heyətinin yekdil qərarı ilə Xalq rəssamı, Prezident təqaüdçüsü, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının İdarə heyətinin üzvü Rafiq Əliş oğlu Nəsirov Milli Kino Mükafatına layiq görülüb.

Xalq rəssamı Azərbaycanda bir çox filmlərin "Bəyin oğurlanması", "Yaramaz", "Bəxt üzüyü"," Həm Ziyarət, həm ticarət", "Otel otağı", "Cavad xan" və s. filmlərin rəssamı olub.

Mükafat 2 avqust Milli Kino Günündə təntənəli formada təqdim ediləcək.

Qeyd edək ki, Milli Kino Mükafatı 2012-ci ildən Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının İdarə Heyətinin qərarı ilə təsis edilib və Azərbaycanda ən yüksək pullu kino mükafatıdır.

## 5 yaşdan yuxarılara ikinci "buster" doza vurulsun

***ÜST Azərbaycanda 5 yaşdan yuxarı orta və ağır immunçatışmazlığı olan şəxslərə ikinci "buster" dozanın tətbiq edilməsini tövsiyə edib.***

ÜST-dən verilən xəbərə görə, əlavə qorunmanı təmin etmək, ağır xəstələnmə, xəstəxanaya yerləşdirmə və COVID-19-dan ölüm riskini minimuma endirmək və səhiyyə xidmətlərinin davamlılığını maksimum dərəcədə artırmaq üçün ölkələr bu addımları atmalıdır.



# “Azərenerji"dən əhaliyə xəbərdarlıq

***“Azərenerji” ASC əhaliyə yüksək gərginlikli elektrik xətlərinin altındakı mühafizə zonasına yem, saman, odun yığmaq, ocaq və yaxud tonqal qalamaq, tarla və zəmiləri, o cümlədən taxıl sahələrinin biçindən sonra yandırmağın qanunla qadağan edilməsi barədə xəbərdarlıq edib.***

“Unikal” xəbər verir ki, qurum bu məqsədlə “Xətlərin altında ocaq, otlaq və ya əkin sahələrini yandırmayın ki, həyatınız və işığınız sönməsin!” devizi altında videoçarx hazırlayıb.

Son günlər ölkənin bir çox ərazilərində biçindən sonra taxıl sahələrinin yandırılması halları artıb və bu da daha geniş əraziləri əhatə edən yanğınlara səbəb olmaqla yanaşı elektrik xətlərinin normal iş rejiminə də təhlükə yaradır.

# AzTU-da yeni kafedra və institut yaradıldı

***Azərbaycan Texniki Universitetində (AzTU) yeni kafedra və institut yaradılıb.***

AzTU-dan “Unikal”a verilən məlumata görə, bu barədə qərar Elmi şuranın 2021/2022-ci tədris ili üzrə keçirilən sonuncu iclasında qəbul edilib.

İclasda yay imtahan sessiyasının nəticələri və tədris ilində universitetin fəaliyyəti barədə məlumat verilib. Həmçinin növbəti semestr üçün perspektiv inkişafla bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul edilib.

İclasda dövlətin kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi üzrə prioritetləri nəzərə alınaraq AzTU-nun İKT yönümlü kafedralarının strukturunun təkmilləşdirilməsi və yeni Kibertəhlükəsizlik kafedrasının yaradılması qərara alınıb.

AzTU-da xarici dil hazırlığının təşkili və xarici dil biliklərinin müasir standartlara uyğun tədrisinə yardım məqsədilə Xarici Dil Texnologiyaları İnstitutunun yaradılmasına qərar verilib.

# Bu yollarda sıxlıq var - SİYAHI



***Daxili İşlər Nazirliyinin İntellektual İdarəetmə Mərkəzi Bakıda sıxlıq yaranan avtomobil yollarını açıqlayıb.***

Mərkəzdən ”Unikal”a verilən məlumata görə, hazırda yollarda vəziyyət aşağıdakı kimidir:

1. Bakı Sumqayıt şossesi Xırdalan dairəsindən başlayaraq 20 Yanvar metro stansiyası istiqamətdə sıxlıq müşahidə edilir.

2. Heydər Əliyev prospekti Koroğlu metro stansiyasının qarşısından başlayaraq mərkəz istiqamətdə əsas yolda nisbətən sıxlıq müşahidə edilir.

3. Ziya Bünyadov prospekti Çermet körpüsünün üzərindən başlayaraq 20 Yanvar metro stansiyası istiqamətdə Atatürk prospekti ilə kəsişməyə qədər sıxlıq müşahidə edilir.

4. Tbilisi prospekti Moskva prospekti ilə kəsişmədən başlayaraq mərkəz istiqamətində sıxlıq müşahidə edilir.

# "2 ildə çox şey dəyişdi" - İlqar Mirzəyevin oğlu atasına səsləndi

***Milli Qəhrəman İlqar Mirzəyevin oğlu Elvin Mirzəyev atasının şəhadətinin ildönümü münasibətilə paylaşım edib.***

”Unikal” xəbər verir ki, o, paylaşımında şəhidlik zirvəsinə ucalan atasına xitab edib: “Sən daima zirvələrdəsən, artilleriyanın atası, əfsanəvi komandir, mehriban, səmimi, gülərüz insan. Sənin yoxluğun bizə çox çətindir, ata, 2 il necə belə tez gəlib gedərmiş. Bax belə də olacaq, illər ötəcək, fəsillər dəyişəcək, amma sən hər zaman qəlbimdə qalacaqsan. Sən unudulmayacaqsan. Ata, sən xalqın qəhrəmanısan.

Əsgərliyi də bitirdim artıq, görəsən xəbərin varmı? Bu 2 ildə nə çox şey dəyişdi, ata. Yenə hamı təsəlli verəcək,



qoymayacaq pis olaq, ancaq nə xeyri, mümkündürmü, ata? Salam olsun sənə, ata, salam olsun sənə, ey Şəhid, salam olsun sənə, Milli Qəhrəman, Salam olsun sənə və səninlə birgə döyüşüb şəhid olan qəhrəmanlara.

Sən təkcə Mirzəyevlər ailəsinin yox, bütün dünya azərbaycanlılarının fəxri və qürur mənbəyisən. Sənin və sizlərin uyuduğunuz o müqəddəs torpaq üçün hər zaman can alıb, can verməyə hazırıq. Ata, sənin müqəddəs və şərəfli yolunu mən davam etdirəcəyəm. Çünki bu mənim məsuliyyətim, borcum və sənin qarşındakı öhdəliyimdir. Hər zaman yaddaşlarda və ürəklərdə olacaqsan.

Nə qədər ki bu millət var, sənin və sizin kimi qəhrəmanlar unudulmayacaq. Əgər sizi unutsaq, sizin haqqınız bizə halal olmasın, bu vətənin, bu yurdun suyu, çörəyi bizə haram olsun”.

# Nazirlik daha bir obyektin fəaliyyətini dayandırdı

***Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti səlahiyyətlərinə uyğun olaraq, ölkədə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə zəruri tədbirlərin görülməsini davam etdirir.***

Nazirlikdən “Unikal”a bildirilib ki, bu çərçivədə, Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən Bakı şəhəri, Abşeron rayonu, Mehdiabad qəsəbəsində yerləşən “Qaz TNK” MMC-yə məxsus istehsal sexində yoxlama zamanı yanğın təhlükəsizliyi sahəsində çoxsaylı nöqsanların mövcud olduğu, həmin nöqsanların insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa təhlükə yaratdığı müəyyən edilib. Belə ki:

- obyektdə mövcud olan yanğın su hovuzuna yanğın avtomobilinin sərbəst yan alması mümkün deyil;
- ərazidə təxliyə yolları taxta materiallarla tutulub;
- otaqlarda kustar üsulla hazırlanmış odun sobalarından istifadə edilir;
- mövcud avtomatik yanğın xəbərverici siqnalizasiya qurğusu nasaz vəziyyətdədir;
- obyektin ərazisinin, anbar və istehsalat sahəsinin istehsal prosesində yaranmış yanar tullantılardan təmizlənməsi təmin edilməyib, işlərin icrası yanğın təhlükəli vəziyyətdə davam etdirilib;
- istehsal sexində tavan və otaqların arakəsmələri odadavamlı məhlulla hopdurulmayıb;
- ərazi, anbar və istehsalat sahəsi yanğın təhlükəsizliyinə dair göstərici nişanlarla təmin olunmayıb.

Beləliklə, mövcud vəziyyət onu göstərir ki, obyektin istismarının davam etdirilməsi nəticəsində orada hər an baş verə biləcək yanğın qısa müddətdə genişlənərək faciəni qaçılmaz edəcək.

Qeyd olunanları nəzərə alaraq, Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən qanunvericiliyin tələblərinə uyğun olaraq yanğın təhlükəsizliyi norma və qaydalarının pozulması faktları aşkar edilmiş Bakı şəhəri, Abşeron rayonu, Mehdiabad qəsəbəsində yerləşən “Qaz TNK” MMC-yə məxsus iki istehsal sexində işlərin və xidmətlərin göstərilməsinin dayandırılması barədə Qərar qəbul olunub və Qərarın bir nüsxəsi obyektin nümayəndəsinə təqdim edilib.



# COVID-19 peyvəndi vurduran analardan doğulan uşaqları nə gözləyir?

***Üç ilə yaxındır bizimlə birgə yaşayan COVID-19 pandemiyası bitmək bilmir. Hələ virus yeni yayılmağa başlayandan onun sonrakı fəsadları ilə bağlı söyləntilər var idi.***

Koronavirsa qarşı tətbiq edilən peyvəndlərlə bağlı da fikirlər haçalanır. Hətta cəmiyyətdə tez-tez COVID-19 peyvəndinin qadınlarda, eləcə də kişilərdə sonsuzluq problemlərinə səbəb olduğuna və ya plasentaya, dölə zərər verdiyinə dair fikirlər səsləndirilir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) isə hamilə qadınlara da peyvənd olunmağı tövsiyə edir.

Bəs, həkimlər məsələ ilə bağlı nə düşünür? Doğrudanmı peyvəndlərin hamilə qadınlara yan təsiri var?

Mama-ginekoloq Güləbətin Göyüşova mövzu ilə bağlı fikirlərini Modern.az-la bölüşüb. Ginekoloq bildirib ki, COVID-19 virusunun hamiləlik dövründə istər ana bətnində olan uşağa, istərsə də, anaya olan təsiri güclü olub: “Bunu praktikada



da müşahidə etdik ki, COVID-19-a yoluxan hamilə qadınlarda erkən həftələrdə inkişafdan qalmalar, düşüklər olur. İkinci, üçünü trimestrlərdə isə vaxtından əvvəl doğuşlara, hamiləlik zamanı tənəffüs problemlərinin olmasına və hamiləlik böyüdükcə bir sıra laxtalanma ilə əlaqədar ciftdə trombun yaranmasına gətirib çıxarır. Hər hansı peyvəndin sonrakı hamiləliklər, eləcə də reproduktiv sağlamlığa heç bir yan təsiri yoxdur”.

G.Göyüşova deyib ki, pasiyentlər virusa qarşı peyvənd olunduqdan 2-3 ay sonra asanlıqla hamilə qala bilirlər:

“Aparılan araşdırmalar göstərir ki, COVID-19 peyvəndinin istər yumurtanın sayına və keyfiyyətinə, istərsə də, spermin hərkətinə və sayına heç bir təsiri yoxdur. COVID-19-a qarşı peyvənd olunmuş qadınlar, kişilər istədikləri dönəmdə hamiləlik planlaya bilərlər. Araşdırmalar hazırda da davam edir. Peyvəndlənmə son 1-2 ildə aparılan prosesdir. Bu uşaqlar üzərində araşdırmalar 15-20 yaşa qədər davam edəcək. İndiyə kimi olan araşdırmalar göstərir ki, peyvənd olunan anadan doğulan uşaqlarda fiziki, zehni və əqli cəhətdən inkişafdan qalma müşahidə edilməyib. Peyvənd olunmuş anadan doğulan uşaqlar tam sağlam şəkildə doğulurlar, əvvəlki illərdə doğulan uşaqlardan hələ ki fərqlənmirlər”.

# ASC çaylarda mühafizə tədbirləri görür

***Balakəndə yeni subartezian quyusu qazılır və dağ çaylarında mühafizə tədbirləri görülür.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Balakən Suvarma Sistemləri İdarəsi kənd təsərrüfatı bitkilərini suvarma suyu ilə təmin edir və selə qarşı mübarizə tədbirlərini həyata keçirir. 2022-ci ilin 5 ayı ərzində daş-beton bəndlərdə rayonun şəhər ərazisinin mühafizəsi üçün 200 kub metr həcmində cari təmir işləri yekunlaşıb, əlavə olaraq şəhər ərazisi üçün 1300 kub metr, Salban kəndini müdafiəsi üçün isə 700 kub metr həcmində cari təmir işləri üçün hazırlıq işlərinə başlanıb. Əlavə olaraq isə suvarmada su itkisinin qarşısının alınması və səmərəliliyin artırılması məqsədilə 3 km uzunluğunda torpaq məcralı kanalın beton üzlüyə alınması işləri üçün hazırlıqlara başlanılıb. Hazırda idarənin texnikaları vasitəsilə Balakən çayda məcra təmizləmə işləri davam edir. Görülən işlər ətraf əraziləri sel sularından mühafizə edir.

Balakəndə suvarma əsasən öz axını ilə həyata keçirilir, dağ çaylarından gələn suların hesabına və 65 ədəd subartezian quyusu və eləcədə 90 artezian quyusu ilə aparılır. Suvarma suyu çaylardan suvarma kanallarına texnikaların köməyi ilə verilir. Rayonda 209 km uzunluğunda suvarma kanalları fəaliyyət göstərir. Ondan 40 km təsərrüfat arası kanallar, 169 km isə təsərrüfat daxili kanallardır. 2022-ci ilin yanvar ayından etibarən suvarmaya hazırlıqla əlaqədar kanallarda 113 min kub metrdən artıq həcmdə təmizləmə işləri aparılıb. Bundan əlavə əhalinin suya olan tələbatının ödənilməsi məqsədilə cari ildə qazılması nəzərdə tutulmuş 6 ədəd subartezian quyusundan 3-ü artıq qazılaraq istifadəyə verilib, 8 ədəd yeni quyunun qazılması üçün isə ərazilərə baxış keçirilərək layihələndirilib.

Qeyd edək ki, rayonda kin sahələrini suvarma suyu ilə təmin edən idarənin balansında 8400 hektar suvarılan torpaq sahəsi var. Bundan 2252 hektar əkin sahəsi, 3778 hektarı həyətyanı sahə və 2370 hektarı çoxillik əkmələrdir. Onu da qeyd edək ki, Balakən rayonu ölkənin sıx çay şəbəkələrinə malik olan bölgələrindən biridir. Bu çaylardan əksəriyyəti, Mazımçay, Katexçay, Balakənçay, Dəliçay, Himbulçay, İntərçay və.s dağ çaylarıdır.





Ağsu çayda mühafizə bəndi tikilir. Dilqəm Şərifov bildirib ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin tabeliyində olan suvarma sistemləri idarələri regionlarda istər suvarma sahəsində, istərsə də yaşayış və əkin sahələrinin sel sularından mühafizəsi istiqamətində fasiləsiz və səmərəli işlər görür. Hər il olduğu kimi bu il də Ağsu Suvarma Sistemləri İdarəsi tərəfindən Ağsu çayda mühafizə bəndlərinin tikintisi aparılır. Ağsu çayın sağ sahilində tikilən 1000 metr uzunluğunda olan bənd Ağsu sakininin Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılovun görüşündə olduğu zaman etdiyi müraciəti əsasında inşa edilir.

Yeni salınan bənd vətəndaşa məxsus obyektin mühafizəsini təmin etməklə yanaşı Ağsu şəhərinin də sel sularından mühafizəsini təşkil edəcək. Hazırda işlər isə yüksək keyfiyyətlə görülür.

Son vaxtlar ölkə ərazisində aramsız yağan yağışlar nəticəsində çaylarda sululuq artıb, bəzi çaylardan isə sel keçib. Yağıntının miqdarının çox olması nəticəsində Ağsu rayonunun bəzi ərazilərində dərələrdən gələn yağış suları Ağsu Suvarma Sistemləri İdarəsinin balansında olan ən böyük hidrotexniki qurğulardan birini sıradan çıxarıb. Nəticədə səkkiz kəndə suyun verilməsində fasilələr yaranıb. Ötən əsrin 60-cı illərində istismara verilən Bərkdərə akveduku uzun illər istismar olunduğundan boruların bəzi hissələrində çürümələr baş verib. Hazırda idarənin texnikaları ilə köhnə borular çıxarılaraq yeni borularla əvəzlənir.



Qeyd edək ki, Ağsu Suvarma Sistemləri İdarəsi Ağsu rayonunun 37000 hektardan artıq suvarılan torpaq sahəsinə xidmət edir. Bu sahələrin suvarılması üçün 1000 km-ə yaxın suvarma kanalından istifadə olunur. İdarənin suvarma mənbələri Girdimançay, Ağsuçay, Yuxarı Şirvan Kanalı və Cavanşir su anbarıdır.

***Hüseyn İsəgəndərov***

# Şəhid Tural Vətən üçün canından keçdi



***Öz qanları ilə Azərbaycanın yeni, şanlı tarixinə adını yazan igidlərdən bir də Tural Elşən oğlu Aslanovdur. Yardımlının Çayüzü kəndində boya-başa çatan Turalın Vətən sevgisi ilahidən gəlirdi. Odur ki, yağı tərəfindən ona olunan təcavüzə göz yuma bilmirdi. Müstəqil həyata qədəm qoyanı birinci istəyi əyninə əsgər paltarı geyinib Vətən torpağını qorumaq, mübarizliklə erməni faşistlərinə qalib gəlmək olur. Elin qəhrəman oğlu Tural ömrünün 28-ci ilində İkinci Qarabağ müharibəsində arzusuna çatır. Cəbhəyə könüllü gedir, Şuşaya qədər döyüş yolu keçir. Noyabrın 7-də qələbənin bir addımlığında qalib ölkənin şəhid övladı kimi əbədiyyətə qovuşur. Mənalı həyat yolu ilə Vətənə, millətə sədaqət nümunəsi olur.***

2013-cü ildə Tural Aslanov Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başlayır. İlk gündən cəsurluğu, qorxmazlığı, vətənpərvərliyi ona hörmət gətirir. Təlimlərdə fəallıq göstərir, cəbhə xəttində düşmənlə qarşı-qarşıya gəldiyi günləri də olur. Vətən, torpaq keşiyində ayıq-sayıq dayanan əsgər yağıya yerini göstərə bilir. Həm də başa düşür ki, torpaqları işğal altında olan bir ölkə üçün hərbiçi səməti hər şeydən vacibdir. Odur ki, zabitlik kursunda oxuyub leytenant rütbəsini alır. Və sonra seçdiyi sənətinin kamil bilicisi olmaqdan ötrü bütün çətinliklərə dözür. Tərxis olunana qədər xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlir, Vətənin haqq işində hər an ona qurban getməyə hazır olmağı ilə əsgərlərin, zabitlərin arasında yaxşı ad qoyur.

Azərbaycan Ordusunun leytenantı olan Tural Aslanov 2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsində Cəbrayılın, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən savaşda böyük hünər göstərir. Neçə dəfə ölümlə üz-üzə dayanır, qeyri-bərabər döyüşlərin iştirakçısı olur. Doğma Azərbaycana qəlbən bağlılığı onu çox ağır sınaqlarda çıxardır. Ən qaynar nöqtələrdə yağıya qan qusdurur. Şuşanın nəfəsini hiss etdikcə isə qəhrəman Turalın damarlarında qanı coşur, dığalardan hər qarış Vətən torpağının qisasını almaq üçün silahdan daha da möhkəm yapışır. Sinəsini gülləyə sipər etməklə arzuladığı qələbəyə çatır. Özü Şuşada şəhid olsa da, xalqına, millətinə zəfər sevincini yaşadır...

İndi yeri cənnət olan, adı Vətənlə qoşa çəkilən igid döyüşçü Tural bütün Azərbaycan üçün əzizdir. Dövlət tərəfində də onun xidmətləri unudulmadı. Ölümündən sonra layiq görüldüyü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib. Bu qürur, şərəf rəmzi olan Vətən mükafatları doğmalarına yaxşı təsəllidir.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Bu il 105 uşağa Polad adı verilib

***Bu il Azərbaycanda Polad adı verilən uşaqların sayı açıqlanıb.***

"Unikal"ın məlumatına görə, cari ilin əvvəlindən bu günə qədər 105 uşağa Polad adı verilib.

Son illər ölkəmizdə Polad adının uşaqlara verilməsi artıb. Belə ki, 2018-ci ildə 55, 2019-cu ildə 53, 2020-ci ildə 193, 2021-ci ildə isə 306 körpəyə Polad adı verilib.

Polad adı 2020-ci ildə Ermənistan-Azərbaycan dövlət sərhədində başlanmış Tovuz döyüşləri zamanı Azərbaycan Ordusunun general-mayoru Polad Həşimovun şəhid olmasından sonra populyarlaşıb.

Qeyd edək ki, bu gün Milli Qəhrəman Polad Həşimovun şəhid olmasından iki il ötür.

***Anar Kəlbiyev***

# Bakıda mənzillər bahalaşıb

***Bakıda mənzillərin qiymətində baş verən artımın həcmi açıqlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) məlumat verilib. Mərkəz tərəfindən keçirilən monitorinqə əsasən, iyun ayında mənzil bazarında qiymət artımları davam edib.

Xüsusən qiyməti 100 min manatadək olan mənzillərə tələbin artması müşahidə olunub.

Qiyməti 100 min manatadək olan mənzillərin qiymətində 7 faiz artım qeydə alınıb. 100-300 min manat qiymət aralığında təklif olunan mənzillər 4 faiz dəyər qazanıb. 300 min manatdan baha təklif edilən mənzillərin qiymətində xüsusi dəyişiklik qeydə alınmayıb.



# ABŞ və İsrail İranla bağlı bəyannamə imzalayacaq

***ABŞ prezidenti Co Bayden və İsrailin baş naziri Yair Lapid iki ölkənin təhlükəsizlik əlaqələrini genişləndirmək və İranın regionda sabitliyi pozmaq səylərinə qarşı çıxmaq məqsədi daşıyan yeni birgə bəyannamə imzalayacaqlar.***

Bu barədə "CNN" Bayden administrasiyasının yüksək vəzifəli rəsmilərinə istinadən məlumat yayıb. Yeni bəyannamədə İranın nüvə silahı əldə etməsinin qarşısının alınması məqsədinin yer alacağı gözlənilir. Sənəddə həmçinin iki ölkənin ümumi maraqlarının, o cümlədən ərzaq təhlükəsizliyinin, eləcə də Ukraynanın suverenliyinə dəstəyin göstəriləcəyi gözlənilir.

Bayden administrasiyası hesab edir ki, Lapidlə görüşdə ABŞ lideri təhlükəsizlik sahəsində İsrailə dəstəyi bir daha bəyan edəcək və İsrail-Fələstin münaqişəsinin iki dövlət əsasında həlli istiqamətində işi müzakirə edəcək.

# Estoniyanın Baş naziri istefa verdi

***Estoniyanın Baş naziri xanım Kaya Kallas istefa verdiyini açıqlayıb.***



"Unikal" xəbər verir ki, bu barədə hökumətin mətbuat xidməti məlumat yayıb.

"Baş nazir Kaja Kallas bu gün səhər hökuməti öz istəyi ilə istefa vermək qərarına gəldiyini rəsmən məlumatlandırıb. Bütün hökumət onunla birlikdə istefaya gedir", - Estoniya hökumətinin saytında yerləşdirilən bəyanatda deyilir.

# ABŞ-ın Ukraynaya hərbi yardımı 7,3 milyard dolları ötüb



***Münaqişə başlayandan indiyədək Amerika Birləşmiş Ştatları Ukraynaya 7,3 milyard dollardan çox hərbi yardım edib.***

"Unikal" xəbər verir ki, bunu ABŞ Dövlət Departamentinin katibinin köməkçisi Cessika Luis bildirib.

Luis qeyd edib ki, yardımlar Pentaqonun bazaları ilə yanaşı, müxtəlif mənbələrdən də göndərilib.

# "9 milyondan çox ukraynalı ölkəsini tərk edib" - BMT

***Rusiya ilə müharibə başlayandan bəri doqquz milyondan çox insan Ukrayna sərhədini keçib.***



"Unikal" xəbər verir ki, bu barədə "Reuters" BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatlarına istinadən yazır.

"Rusiyanın ölkəyə müdaxiləsindən sonra Ukraynadan 9 milyondan çox insan sərhədi keçib", - deyə bəyanatda bildirilib.

Qeyd olunur ki, fevralın 24-də BMT-də Ukraynadan ümumilikdə 9 136 006 sərhəd keçidi qeydə alınıb.

# Rusiya Ukraynada robot pulemyotlardan istifadə edir

***Ukraynada davam edən hərbi əməliyyatlar zamanı Rusiya Silahlı Qüvvələrinin xüsusi təyinatlı bölmələri "Arbalet-DM" robot pulemyotlarının quraşdırıldığı "Tiqr-M" zirehli maşınlarından istifadə edir.***

"Unikal" xəbər verir ki, bu barədə TASS məlumat yayıb. "Rusiya Silahlı Qüvvələrinin xüsusi



təyinatlı bölmələri "Tiqr-M" zirehli maşınlarında quraşdırılmış "Arbalet-DM" uzaqdan idarə olunan robot pulemyotları ilə yaşayış məntəqələrinin "təmizləmə" əməliyyatlarını uğurla həyata keçirərək operatora vəziyyətə nəzarət etməyə imkan verir", - agentlik qeyd edib.

*Gülayə Mecid*

# Ukraynalılara verilən Rusiya pasportları tanınmayacaq

***Rusiya Federasiyasının ukraynalılar üçün Rusiya vətəndaşlığının sadələşdirilmiş proseduru ilə bağlı yeni qanunvericiliyi suverenliyin pozulmasıdır və Aİ belə pasportları tanımayacaq.***

"Unikal" xəbər verir ki, bunu Avropa İttifaqının (Aİ) xarici siyasət xidmətinin rəhbəri Josep Borrell deyib.

"Bütün ukraynalıların Rusiya vətəndaşlığını əldə etmə prosedurunu sadələşdirən yeni Rusiya qanunvericiliyi Ukraynanın qeyri-qanuni müharibə ilə bağlı suverenliyinin növbəti kobud şəkildə pozulmasıdır. Aİ bu pasportları heç vaxt tanımayacaq", - Borrell öz "Twitter" səhifəsində yazıb.

O əlavə edib ki, Aİ özünü elan etmiş Luqansk və Donetsk Xalq Respublikalarında, eləcə də Zaporojye və Xerson vilayətlərində verilən Rusiya pasportlarına münasibətdə olduğu kimi eyni mövqedən çıxış edəcək.

*Ağarza Elçinoğlu*




# Rus komandirlər Ukraynada döyüşməkdən imtina edirlər

***Rusiya taqım komandirləri Ukraynada döyüşməkdən imtina edirlər.***

"Unikal" xəbər verir ki,bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı öz "Facebook" səhifəsində məlumat yayıb.

"İşğalçı qoşunların ərzaqla təmin olunmaması halları qeydə alınır. Mövcud məlumata görə,



Mərkəzi Hərbi Dairənin 2-ci Əlahiddə Ümumqoşun Ordusunun bölmələrində tağım komandirləri tərəfindən şəxsi heyətlə təminat səviyyəsi aşağı olaraq qalır. Buna səbəb xeyli itki və imtinadır. Bir sözlə, onlar Ukrayna ərazisində hərbi əməliyyatlarda iştirak etməkdən imtina edirlər", - mesajda deyilir.

# Maldivdə olan Şri-Lanka prezidenti Sinqapura gedəcək

***Maldiv adalarında olan Şri-Lanka Prezidenti Qotabaya Racapaksa şəxsi təyyarə ilə Sinqapura gedəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Şri-Lankanın "Daily Mirror" qəzeti məlumat yayıb. Bildirilir ki, orada öz istefasını elan edəcək.

Maldiv adalarında yeganə olan İbrahim Nasir Beynəlxalq Hava Limanı, Racapaksanın planlaşdırılan gedişi ilə əlaqədar gücləndirilmiş təhlükəsizlik tədbirləri altındadır. Bildirilir ki, göyərtəsində dövlət başçısı və xanımı olan şəxsi təyyarənin yola salınması "təxliklə" baş tutacaq.

Onun iyulun 13-də dövlət başçısı vəzifəsindən istefa verəcəyini rəsmən elan edəcəyi gözlənilirdi, lakin bu baş verməyib.

Qeyd edək ki, o, iyulun 9-da Kolomboda istefa tələbi ilə keçirilən kütləvi etirazlardan sonra ölkəsini tərk edib.

# "PKK-ya qarşı əməkdaşlıq vacibdir" - Stoltenberq

***NATO-nun baş katibi Yens Stoltenberq PKK-nın İsveç və Finlandiya da daxil olmaqla bütün Aİ üzvləri tərəfindən terrorçu hesab edildiyini, təşkilata qarşı əməkdaşlığın ağlabatan və vacib olduğunu bildirib.***

"Unikal" xəbər verir ki, o bu barədə Avropa Parlamentinin Avropa İttifaqı (Aİ)-NATO əməkdaşlığı və Madrid Sammitinin yekunlarına həsr olunmuş iclasda deputatların suallarını cavablandırarkən deyib.

Aİ ilə NATO arasında yeni ortaq bəyanatın gündəmdə olduğunu bildirən Stoltenberq, "Ən qısa zamanda bunun üzərində işə başlayacağıq", - deyib.

Stoltenberq bəyan edib ki, bəyannamə Aİ və NATO-nun müəyyən etdiyi 74 birgə layihənin həyata keçirilməsi və prioritetlərin müəyyən edilməsi baxımından vacibdir.

Ukraynaya dəstək məsələsinə toxunan Stoltenberq, "Hazırda diqqət Ukraynanın müstəqil və suveren bir xalq kimi qalib gəlməsinə kömək etmək üçün dəstəyin verilməsinə yönəlib. Diqqət hazırda üzvlük deyil, əlbəttə ki, müdafiə və təhlükəsizliyin təmin edilməsinə kömək etmək, dəstəkləmək və modernləşdirməkdir. Bizim gördüyümüz işlər nə vaxtsa Ukraynanı üzvlüyə yaxınlaşdıracaq", - deyə o bildirib.

*Gülayə Mecid*

# “Sürix”lə oyunlar “Lex”lə matçlardan çətin olacaq”

***“Oyuna baxmayan bir adam hesabı görüb deyə bilər ki, yəqin, “Lex” çox zəifdir. Amma bu, heç də belə deyildi. Hətta ilk saniyələrdə buraxdığımız qol futbolçularımızı bir az silkələdi. Amma sonra özlərində güc tapa bildilər”.***

Bu sözləri Qol.az saytına açıqlamasında futbol mütəxəssisi Aslan Kərimov deyib. O, “Qarabağ”ın Çempionlar Liqasının 1-ci təsnifat mərhələsində Polşa “Lex”ini məğlub etməsi (ilk matç - 0:1, cavab oyunu - 5:1) barədə danışıb:

“İlk oyundan sonra da bu komandanı keçə biləcəyimizə inanırdım. Matçın gedişatı, futbolçuların ustalıq səviyyəsi onu göstərirdi ki, biz “Lex”in müdafiəsini yara bilərik. Hesab edirəm ki, ilk matçın birinci hissəsindəki real qol imkanlarımız Bakıdakı oyundan daha çox idi. Sadəcə olaraq son nöqtəni qoymaqda çətinlik çəkirdik. Amma ikinci oyunda “Qarabağ” bunu aradan qaldıra bildi. Hər bir imkanı bilavasitə qola çevirə bildilər. Bu da bizim üçün böyük üstünlükdür. Üstəlik havanın isti olması, azarkeşlərin dəstəyi “Lex”ə mane olurdu. Lakin “Lex”in oyununu da dəyərləndirmək istəyərdim. Çox sürətli əks-hücumlar edirdilər. Elə matç başlayar-başlamaz qol da vurdular. Bundan sonra da çox təhlükəli əks-hücumlar edirdilər. Ümumilikdə, “Qarabağ”ın 5:1 hesablı qələbə qazanmasına sevinirik, amma unutmamaq lazımdır ki, “Lex” zaman-zaman bizi əks-hücumlarda yaxalaya bilirdi. Belə situasiyalar növbəti oyunlarda bizim üçün təhlükəli ola bilər”.

Aslan Kərimov bildirib ki, “Qarabağ” hazırkı heyəti ilə ÇL-in qrup mərhələsinə yüksələ bilər, lakin güclü rəqiblərlə mübarizə aparması üçün yeni futbolçular transfer etməlidir:

“Təbii ki, “Qarabağ” Çempionlar Liqasının qrup mərhələsinə düşə bilər. Bu, futboldur. Hər bir şey ola bilər. Amma qrupda yaxşı nəticə göstərmək üçün komplektləşmiş futbolçulara malik olmalısan. Qrup mərhələsində “Şerif” kimi komanda ilə qarşılaşsaq, nəsə edə bilərik. Amma “Bavariya”, “Barselona”, “Real” səviyyəsində olan komandalarla oynasaq, bu heyətlə heç nə edə bilməyəcəyik. Bu, açıq aşkar görünür. Heyəti gücləndirmək baxımından gözə çarpılan şeylərdən biri də təbii ki, son nöqtəni qoyan, tipik hücumçu olmamasıdır. Düzdür, İbrahima Vadji son anadək qaçırdı, iş görürdü, amma o incəlik Vadjidə yox idi. Çempionlar Liqası kimi mötəbər bir yarışın qrup mərhələsinin matçlarında “Lex”lə oyunda yaranan qədər qol imkanları yaranmayacaq. Cüzi bir qol imkanını reallaşdırmaq məcburiyyətində olacaqsan. Ona görə də tipik hücumçuya ehtiyac var. Məsələnin ikinci tərəfi də budur ki, belə futbolçunu necə, hardan əldə etmək olar. Almaq mümkündürmü, ya mümkün deyilmi, bu məsələlərə daxil olmaq istəmirəm. Klubu bununla bağlı günahlandırmağın yeri yoxdur. Yaxşı, dəyərli futbolçuların çoxu Azərbaycana gəlmək istəmirlər. Bəzən zədəli oyunçular gəlirlər. Hərdən bu cür yaxşı futbolçuları tapmaq olur. Məsələn, Reynaldo Silva “Anderlext”də oynayanda dizində cüzi bir zədə var idi. Ona görə də “Anderlext” Reynaldonu satdı. “Qarabağ” onu transfer etdi, sonra çox yaxşı oynamağa başladı. Amma 2 il sonra yenə zədə özünü göstərdi. Belə bir futbolçu tapılsa, ola bilər ki, faydalı olsun. Amma bu da lotereya kimi bir şeydir. Qapıçı mövqeyinə də toxunmağa dəyər. Şahruddin Məhəmmədəliyev yaxşı qapıçıdır, amma daha yuxarı mərhələlərdə oynadıqca bir yaxşı qapçıya ehtiyac olacaq. Ən azı, İbrahim Şehiç kimi qolkiper lazımdır”.

Mütəxəssis Ağdam təmsilçisinin Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində İsveçrə “Sürix”i ilə keçirəcəyi oyunlara da toxunub:

“Düzü, “Sürix”in oyununa hələ baxmamışam. Çünki “Lex”i adlamamış “Sürix”i izləmək düzgün olmazdı. Amma bunu qeyd edə bilərəm ki, İsveçrənin futbol səviyyəsi Polşa ilə eynidir, hətta daha yaxşıdır. İsveçrə təmsilçiləri Çempionlar Liqasının qrup mərhələsində daha çox oynayıblar. Bu baxımdan onların texniki heyəti, futbolçuları üst səviyyədədir. UEFA-nın qərargahı da İsveçrədədir. İstər-istəməz İsveçrədə maariflənmə daha yaxşı səviyyədədir. İsveçrədən yüksək liqalara transfer olunmaq daha rahatdır. Ona görə İsveçrə klublarının futbolçuları da keyfiyyətli olur. Məncə, “Sürix”lə matçlar “Lex”lə oyunlardan çətin olacaq. Amma yenə də “Sürix”in çıxışına baxandan sonra dəqiq nəsə demək mümkün olacaq”.



***Nur Zeynalova***

# Ronaldoya fantastik təklif



***“Mançester Yunayted”in hücumçusu Kriştiano Ronaldo Səudiyyə Ərəbistanından təklif alıb.***

Apasport.az saytının məlumatına görə, AS nəşri adı açıqlanmayan bir klubun 37 yaşlı forvarda illik 125 milyon avro maaş ödəməyə hazır olduğunu yazıb.

Onlar həmçinin “Mançester Yunayted”ə 30 milyon, daha 20 milyon avro isə menecerlik haqqı ödəməyə razıdır.

37 yaşlı superulduz isə hələ də “Mançester Yunayted”in düşərgəsinə qoşulmayıb. O, Çempionlar Liqasında iştirak etmək üçün klubdan ayrılmaq fikrindədir.

Qeyd edək ki, Ronaldo ötən mövsüm 38 oyunda 24 qol vurub.

# “Neftçi”nin oyununun biletləri satışa çıxarıldı




***Konfrans Liqasının II təsnifat mərhələsində “Aris”lə “Neftçi” arasında Kiprdə keçiriləcək ilk oyunun biletləri satışa çıxarılıb.***

Apasport.az saytı xəbər verir ki, bu barədə Limassol klubu məlumat yayıb.

Bildirilib ki, azarkeşlər “AEK Arena”da baş tutacaq qarşılaşmanın biletlərini bu gündən etibarən ala bilərlər. Biletlərin qiyməti 15 avrodur. Tələbələr 10, uşaqlar isə 1 avro ilə bunu əldə edə bilərlər. VİP yerlər üçün böyüklər 50, tələbələrlə uşaqlar 25 avrolarından keçməli olacaqlar.

Qeyd edək ki, “Aris” - “Neftçi” oyunu iyulun 21-də keçiriləcək. Qarşılaşmanın baş tutacağı Larnakadakı “AEK Arena” 7400 tamaşaçı tutumuna malikdir.

# "Qalatasaray"la matç "Qəbələ" ilə oyun üçün əla sınaq idi"



***”Təlim-məşq toplanışında keçirdiyimiz yoxlama oyunlarının içərisində ən çox razı qaldığım bu görüş oldu. Daha çox qol vura bilərdik. Əsas odur ki, “Qalib gəldik”.***

Qol.az xəbər verir ki, bu sözləri Konfrans Liqasının 2-ci təsnifat mərhələsində “Qəbələ”nin rəqibi olan Macarıstanın ”Fehervar”ın baş məşqçisi Mixael Boris ”Qalatasaray” qalib gəldikləri (1:0) yoxlama oyunu ilə bağlı danışarkən deyib.

47 yaşlı mütəxəssis klubun rəsmi saytına açıqlamasında bundan sonra “Qəbələ” ilə görüş haqda düşünəcəklərini bildirib: ”Beynimdə start heyəti formalaşdırmağa başlamışam. Hətta əvəzedicilərə də çox ehtiyacımız olacaq. Hazırlıq prosesini planlaşdırılandan bir gün əvvəl başa vururuq. Çünki oyunçuların bir az istirahətə ehtiyacı var”.

Qeyd edək ki, ”Qəbələ” ”Fehervar”a qarşı ilk oyununu iyulun 21-də səfərdə, cavab matçını isə bir həftə sonra evdə keçirəcək.

# İki oyuna 3 VARİANT



***Qarşılaşmalara iki oyundan ibarət ekspress açıqlanıb.***

Apasport.az saytının məlumatına görə, futbol eksperti Dmitri Razumeyts bu matçlara üç mərc təklifi irəli sürüb.

O, Konfrans Liqasının I təsnifat mərhələsinin görüşlərinə üstünlük verib. Razumeytsin kuponun ümumi əmsalı 3,08-dir.

“Deçiç” - “Dinamo” (Minks): 1X

“Hamrun” - “Alaşkert”: X2 və 3,5 ALT